COMMISSIONER FOR HUMAN RIGHTS
COMMISSAIRE AUX DROITS DE L'HOMME

COUNCIL OF EUROPE CONSEIL DE L'EUROPE

Strasburq, 29 iyun 2010-cu il

CommDH(2010)21
Sənədin əsli

# Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Tomas Hammerberqin

1-5 mart 2010-cu ildə Azərbaycana etdiyi səfərlə bağlı

# HESABATI

Təhlil olunan məsələlər:

İfadə azadlığı, birləşmək azadlığı, hüquq-mühafizə orqanları əməkdaşlarının davranışı, ədliyyə orqanlarının fəaliyyəti,
Naxçıvan Muxtar Respublikasına səfərlə bağlı müşahidələr.

**Hesabatın icmalı**

Komissar Tomas Hammerberq və onun başçılıq etdiyi nümayəndə heyəti 1-5 mart 2010-cu ildə Azərbaycana səfər etdi. Həmin səfər əsnasında Komissar mərkəzi və yerli hakimiyyət orqanları ilə, habelə vətəndaş cəmiyyətinin təmsilçiləri ilə insan hüquqlarının vəziyyəti barədə müzakirələr apardı, və bu zaman təcili diqqət tələb edən məsələlərə xüsusi yer ayırdı.

Aşağıda göstərilən əsas məsələlərə bu hesabatda xüsusi diqqət yetirilir:

**1. İfadə azadlığı:** Son illərdə bir sıra KİV işçisi, o cümlədən Eynulla Fətullayev diffamasiyada ittiham edilərək, məhkum olunmuşlar. 22 aprel 2010-cu il tarixli qərarında Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycanın hakimiyyət orqanlarını cənab Fətullayevin dərhal azad olunmasını təmin etməyə çağırıb. Komissar hakimiyyət orqanlarına bunu gecikdirməməyi tövsiyə etdi və vurğuladı ki, ifadə etdikləri fikirlərə və rəylərə görə həbs edilən jurnalistlər və hər hansı digər şəxslər dərhal azad edilməlidirlər. Bundan əlavə, diffamasiyaya görə cinayyət məsuliyyətinin ləğv edilməsi, ifadə azadlığının qorunması istiqamətində atılan mühüm addımlardan biridir, və bu sahədə həyata keçirilən hər hansı islahat Avropa İnsan Hüquqları Məhkəməsinin təyin etdiyi standartlara uyğun gəlməlidir.

Komissar jurnalistlərin və ya insan Hüquqları müdafiəçilərinin hədələnməsi, təqib edilməsi və zorakılığa məruz qalması və bu cür halların təhqiq edilməməsi barədə aldığı məlumatlardan xüsusilə narahat olduğunu bildirdi. Komissar qeyd etdi ki, jurnalistləri məhkum etmək üçün bəzi hallarda Cinayət Məcəlləsinin müxtəlif müddəaları, məsələn, irqi, milli və dini nifrətin qızışdırılması, xuliqanlıq, vergidən yayınma, narkotik maddə saxlama və terrorizm barədə müddəalar istifadə edilmişdir. Nəticə etibarilə, tənqidi fikirlər bildirmiş olan müəyyən jurnalistlər və ya digər şəxslər hədəfə alınmışdırlar. Gənclər hərəkatının Bakıda yaşayan iki fəal iştirakçısı Emin (Milli) Abdullayevə və Adnan Hacızadəyə qarşı açılan məhkəmə işinin timsalında bunu müşahidə etmək olar.

Qanunvericilikdə edilən son düzəlişlər jurnalistlərin fəaliyyətinə, xüsusilə onların məlumat vermək hüququna mənfi təsir göstərmiş ola bilər, habelə Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsini pozmuş ola bilər və Avropa İnsan Hüquqları Məhkəməsinin indiyə qədər qəbul etdiyi müvafiq qərarlara zidd ola bilər.

Mətbuat Şurasının dərc etdiyi “Şantajla məşğul olan qəzetlərin qara siyahısı”nın mövcudluğu Komissarın diqqətini cəlb etdi. Jurnalistikanın etik qaydalarını pozduqları iddia edilən və şantajdan istifadə etməkdə ittiham olunan 90 qəzetin adı həmin siyahıda verilmişdir. Jurnalistlərin peşəkarlığını təmin etməyə ehtiyac olduğunu etiraf etməklə yanaşı, Komissar bu cür yanaşmanın səmərəli olacağına çox şübhə etdiyini bildirdi, çünki bu zaman qərəzli qərarların qəbul edilməsi təhlükəsi yaranacaqdır.

**2. Birləşmək azadlığı:** Azərbaycanda QHT-lərin qeydiyyata alınması təcrübəsində olan çatışmazlıqlar Komissarı çoxdan bəri narahat etməkdədir. Bundan əlavə, verilən məlumatlara görə, bəzi dini icmalar təkrar qeydiyyatdan keçməkdə çətinlik çəkmişlər. Azərbaycanın hakimiyyət orqanları təsdiq etdilər ki, qeydiyyat ərizələrinə baxılması çevik və səmərəli qaydada həyata keçirilməlidir. Komissar QHT-lərin qeydiyyatını asanlaşdırmaq üçün hakimiyyət orqanlarının tədbir görmək əzmində olduğunu yüksək qiymətləndirir.

Bundan əlavə, Komissar son zamanlar qanunvericilikdə edilən və Azərbaycanda birləşmək azadlığını məhdudlaşdıra bilən dəyişikliklərdən narahat olduğunu bildirdi. Komissar QHT-lərin fəaliyyətini həddindən artıq sərt şəkildə tənzimləmək cəhdlərindən əl çəkməyi tövsiyə etdi və birləşmək azadlığını təmin etmək üçün hakimiyyət orqanlarını daha çox səy göstərməyə dəvət etdi.

**3. Hüquq-mühafizə orqanları əməkdaşlarının davranışı:** Avropa İnsan Hüquqları Məhkəməsi özünün Azərbaycana aid olan üç qərarında 3-cü maddənin (işgəncənin qadağan edilməsi) pozulduğunu təsbit etmişdir, və hüquq-mühafizə orqanları əməkdaşlarının gələcəkdə də vətəndaşlarla pis rəftar edəcəkləri barədə narahatlıqlar hələ də mövcuddur. Qanunu pozan polis əməkdaşlarını cəzalandırmaq üçün görülən tədbirlər barədə Komissara məlumat verildi. Komissar hakimiyyət orqanlarına tövsiyə edir ki, polis əməkdaşları tərəfindən göstərilən pis rəftar halları barədə daxili inzibati təhqiqatların aparılmasının hazırki qaydası dəyişdirilsin və polis haqqında şikayətlərə baxan müstəqil orqan yaradılsın.

**4. Ədliyyə orqanlarının fəaliyyəti:** Komissar Kürdəxanıda yenicə inşa edilən istintaq təcridxanasına səfər etdi və orada bəzi məhbuslarla söhbət etdi. Məsələn, Azərbaycan Ali Məhkəməsinin Plenumu tərəfindən bütün məhkəmələrə ibtidai həbsdən fərqli olan üsulları nəzərə almaq təlimatını verən qərarın qəbul edilməsi yolu ilə ibtidai həbs tədbirlərinin həddindən artıq çox tətbiq edilməsini aradan qaldırmaq üçün göstərilən səylər barədə məlumat Komissara təqdim edildi.

Azərbaycana qarşı açılan bir neçə məhkəmə işində Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən aşkar edilən ədalətli mühakiməyə nail olmaq hüququnun pozulması hallarının təkrar olunmasının qarşısını almaq üçün əlavə islahatlar nəzərdə tutulmalıdır. Yerli məhkəmələrin qərarlarının icra olunmaması narahatlıq doğuran məsələ olaraq qalmaqdadır. Komissar tövsiyə edir ki, hakimiyyət orqanları yekun məhkəmə qərarlarının münasib müddət ərzində icra edilməsini təmin etmək üçün lazımi tədbirlər görsünlər.

**5. Naxçıvan Muxtar Respublikasına səfər əsnasında edilən müşahidələr:** Komissar Azərbaycanın bu bölgəsinə, yəni Naxçıvan Muxtar Respublikasına ilk dəfə idi ki, səfər edirdi, və o, Naxçıvanın hakimiyyət orqanları ilə insan Hüquqları məsələləri, xüsusilə plüralist demokratiyanın həlledici ünsürlərindən biri olan vətəndaş cəmiyyətinin azad fəaliyyətinə mane olan hər hansı amilləri aradan qaldırmaq ehtiyacı barədə dialoqu başlamaq imkanı qazandı.

Naxçıvan şəhərində psixiatriya xəstəxanasına etdiyi qısa səfər əsnasında Komissar xatırlatdı ki, psixiatriya müəssisələrinə məcburi yerləşdirməni həyata keçirmək üçün bütün hallarda tibbi müayinə əsasında müvafiq məhkəmə qərarının qəbul edilməsi tələb olunur.

Komissar həm də Bənənyar kəndinə səfər etdi. Səfərin əsas məqsədi kənddə bu yaxınlarda baş verən hadisələri, yəni verilən məlumata görə, 2009-cu ilin dekabr ayında Aşura dini mərasiminin qeyd edilməsi əsnasında kənd sakinləri və polis əməkdaşları arasında baş verən toqquşmanı müzakirə etmək idi. Komissar bu hadisələr barədə ziddiyyətli məlumatlar almışdı və buna görə də bir çox suala cavab tapa bilmirdi. Pis rəftar iddiaları müstəqil və şəffaf surətdə təhqiq edilməlidir.

Hesabat Komissarın yekun fikirləri və tövsiyələri ilə bitir.

Azərbaycanın hakimiyyət orqanlarının qeydləri bu hesabata əlavə edilmişdir.

## Giriş

1. Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Tomas Hammerberq 1-5 mart 2010-cu ildə Azərbaycana səfər etdi. Səfərin əsas məqsədi Azərbaycanda müəyyən insan Hüquqları məsələlərini, o cümlədən söz azadlığını, qeyri-hökumət təşkilatlarının (QHT) vəziyyətini, hüquq-mühafizə orqanları əməkdaşlarının davranışını və ədliyyə orqanlarının fəaliyyətini nəzərdən keçirmək idi. Səfər əsnasında Komissar Bakıda hakimiyyət orqanları, vətəndaş cəmiyyətinin təmsilçiləri və KİV əməkdaşları ilə söhbət etdi. Bundan əlavə, Komissar Hammerberq ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasına səfər etdi.[1]

2. Bakıda Komissar Prezident İlham Əliyev, Daxili İşlər Naziri Ramil Usubov, Ədliyyə Naziri Fikrət Məmmədov, Xarici İşlər Nazirinin müavini Mahmud Məmmədquliyev, Baş Prokuror Zakir Qaralov və Avropa Şurasının Parlament Asambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov ilə görüşdü. O, həm də İnsan Hüquqları üzrə Müvəkkil Elmira Süleymanova və beynəlxalq təşkilatların və vətəndaş cəmiyyətinin təmsilçiləri ilə müzakirələr apardı.

3. Səfər əsnasında Komissar Bakı ərazisində yerləşən azadlıqdan məhrumetmə yerlərini ziyarət etdi, orada jurnalistlər Qənimət Zahidov və Eynulla Fətullayev, habelə gənclər hərəkatının iki fəal iştirakçısı Emin (Mili) Abdullayev və Adnan Hacızadə ilə söhbət etdi.

4. Naxçıvan Muxtar Respublikasında Komissar Ali Məclisin Sədri Vasif Talıbov, habelə İnsan Hüquqları üzrə Müvəkkil Ülkər Bayramova və vətəndaş cəmiyyətinin təmsilçiləri ilə görüşdü.

5. Komissar Azərbaycan hakimiyyət orqanlarına, xüsusilə Bakıda yerləşən Xarici İşlər Nazirliyinə və Strasburqda yerləşən Avropa Şurasında Azərbaycanın Daimi Nümayəndəliyinə bu səfəri təşkil etməkdə göstərdikləri dəyərli köməkliyə görə öz təşəkkürünü bildirmək istəyir. O, həm də qonaqpərvərliklərinə və səfəri təşkil etməyə kömək etdiklərinə görə Naxçıvan Muxtar Respublikasının hakimiyyət orqanlarına öz minnətdarlığını bildirmək istərdi. Komissar həm də Avropa Şurası Baş Katibinin Azərbaycanda Xüsusi Nümayəndəsi Veronika Kotekə və Avropa Şurasının Bakı nümayəndəliyinin heyətinə bütün səfər ərzində dəyərli köməklik göstərdiklərinə görə çox minnətdardır.

6. Komissar Azərbaycanda insan hüquqlarının vəziyyətini daha yaxşı başa düşmək və bu məsələ ilə daha yaxından məşğul olmaq məqsədi ilə, hakimiyyət orqanları və vətəndaş cəmiyyətinin təmsilçiləri ilə məhsuldar dialoq qurdu . O, bütün həmsöhbətlərinə görüş üçün vaxt ayırdıqlarına və öz bilik və fikirlərini onunla bölüşdüklərinə görə təşəkkür etmək istəyir. O, xüsusilə Bakıda Ədliyyə Naziri ilə apardığı səmərəli müzakirələri yüksək qiymətləndirdiyini vurğulamaq istərdi: Nazir Komissarın tövsiyələrini yerinə yetirmək üçün Azərbaycan Hökumətinin qətiyyətli addımlar atmağa hazır olduğunu bildirdi.

7. Bu hesabatda Komissar aşağıda sadalanan əsas məsələlərə xüsusi diqqət yetirir: İfadə azadlığı (I bölmə); Birləşmək azadlığı (II bölmə); Hüquq-mühafizə orqanları əməkdaşlarının davranışı (III bölmə); Ədliyyə orqanlarının fəaliyyəti (IV bölmə); Naxçıvan Muxtar Respublikasına səfər əsnasında edilən müşahidələr (V bölmə); və nəhayət Yekun fikirlər və tövsiyələr (VI bölmə).

[1] Azərbaycana səfər əsnasında Komissarı onun İcra Aparatının müdir müavini Boyana Urumova və hüquq müşaviri En Veber müşayiət edirdilər.

## I. İfadə azadlığı

8. İfadə azadlığı Komissarın işinə aid olan ən vacib mövzulardan biridir. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinin 2-ci paraqrafında təsbit olunan hüdudlar çərçivəsində, məlumat və fikir azadlığı əsasında azad, müstəqil və plüralist KİV-in təmin edilməsi istənilən sağlam demokratik cəmiyyətin əsas ünsürlərindən biridir.

### 1. Diffamasiya

9. Özünün Azərbaycana dair 2008-ci il hesabatında[2] Komissar tövsiyə etmişdi ki, diffamasiyaya görə cinayyət məsuliyyətinin ləğv edilməsi təcili surətdə həll edilməli olan məsələ kimi nəzərə alınmalıdır: o, diffamasiya haqqında qanunvericiliyi dəyişdirmək, hər hansı şəxsin ifadə etdiyi fikirlərinə görə azadlıqdan məhrum edilməsi təhlükəsini aradan qaldırmaq, habelə diffamasiya haqqında qanun əsasında məhkum olunan şəxsləri azad etmək məqsədilə tərtib edilən yeni qanunun ilkin variantı üzərində aparılan işi rəğbətlə qarşılamışdı. Təəssüf ki, indiyədək diffamasiyaya görə cinayyət məsuliyyətinin ləğv edilməsi istiqamətində az irəliləyiş əldə olunmuşdur. Cinayət Məcəlləsinin müvafiq olaraq üç ilədək və altı ayadək həbs cəzası təmin edən 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri yenə də jurnalistləri təqib etmək məqsədilə istifadə edilməkdədir. Vətəndaş cəmiyyəti təmsilçilərinin bildirdiyi kimi, diffamasiya haqqında müddəalar əsasında jurnalistlərə qarşı açılan məhkəmə işlərinin sayı əslində artmışdır.[3]

10. Son illərdə bir sıra KİV əməkdaşı, o cümlədən 2007-ci ilin aprel ayından bəri həbsdə olan, (indi artıq dərc edilməyən) *Gündəlik Azərbaycan* və *Realniy Azerbaijan* qəzetlərinin baş redaktoru Eynulla Fətullayev həmin müddəalar əsasında məhkum edilmişlər. Əvvəlcə o, 1992-ci ildə Dağlıq Qarabağda baş verən Xocalı qətliamı haqqında İnternetdə dərc etdiyi məlumatla əlaqədar olaraq və böhtanda ittiham edilərək, iki il yarımlıq həbs cəzasına məhkum edilmişdi. Bundan əlavə, 2007-ci ilin oktyabr ayında Bakıda Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmə onu terrorizmlə məşğul olduğuna və insanları irqi nifrətə təhrik etdiyinə görə məhkum etdi. 2007-ci ilin aprel və oktyabr qərarlarına qarşı verilən apellyasiya şikayətləri həm Apellyasiya Məhkəməsi, həm də Ali Məhkəmə tərəfindən rədd edildi. Təxminən eyni dövrdə cənab Fətullayevə qarşı vergidən yayınma ittihamları irəli sürüldü. Penitensiar xidmətin bildirdiyi kimi, 29 dekabr 2009-cu ildə, həbsxanada aparılan axtarış əsnasında cənab Fətullayevin paltarlarının və ayaqqabılarının içində 0,22 qram heroin tapıldı. İddia edildiyi kimi, cənab Fətullayevin narkotik maddə saxlaması barədə cinayət istintaqı başladıldı. Bu yeni cinayət ittihamları həbs müddətinin daha üç il artmasına səbəb ola bilərdi. 30 dekabr 2009-cu ildə dərc edilən bəyanatda ATƏT-in Media azadlığı üzrə nümayəndəsi heroinin daşınması və saxlanması iddialarını həddən artıq inanılmaz adlandırmışdı.[4] Komissar təsdiq edir ki, cənab Fətullayevə qarşı açılan yeni cinayət işi inandırıcı görünmür. O, bir çox digər şəxs kimi, ehtimal edir ki, Fətullayevin həbs olunması və ona qarşı açılan yeni cinayət işi onun Hökuməti tənqid edən məqalələrinin dərc edilməsinin qarşısını almaq üçün edilən cəhdlərdir. Bəziləri həm də, verilən məlumata görə, cənab Fətullayevə və onun ailəsinə ünvanlanan ciddi hədələr barədə narahat olduqlarını bildirmişlər.

11. Səfəri əsnasında Komissar Bakı yaxınlığında yerləşən Kürdəxanı istintaq təcridxanasında, yəni hazırda cənab Fətullayevin saxlandığı yerdə onunla görüşdü. Komissar hakimiyyət orqanları qarşısında bu məsələni bir daha qaldırdı və cənab Fətullayevi azad etməyi tövsiyə etdi. Təəssüf ki, cənab Fətullayev Novruz bayramı münasibətilə Prezidentin verdiyi əfv fərmanına daxil edilmədi.

---

[2] CommDH(2008)2, İnsan Haqları üzrə Komissarın Azərbaycana səfəri haqqında hesabatı (3-7 sentyabr 2007-ci il), 69-73-cü bəndlər.
[3] 2005-ci ildə 14, 2006-cı ildə 29, 2007-ci ildə 103, 2008-ci ildə 63, 2009-cu ildə 32 (Media Hüquqları İnstitutunun illik hesabatlarında qeyd edildiyi kimi). Jurnalistlərə və hüquq müdafiəçilərinə qarşı zorakılıq, təqib və hədələmə haqqında 2-ci yarımbölməyə də bax.
[4] Bəyanatın tam mətni ilə bu ünvanda tanış olmaq mümkündür: http://www.osce.org/fom/item_1_42272.html.

12. 22 aprel 2010-cu ildə Avropa İnsan Hüquqları Məhkəməsi (Məhkəmə) bir qərar[5] qəbul edərək, belə qənaətə gəldi ki, Eynulla Fətullayev barədə qəbul edilən ilk iki cinayət hökmündə Avropa İnsan Hüquqları Konvensiyasının (Konvensiya) 10-cu maddəsi iki dəfə pozulmuş, onun cinayət işinə müstəqil məhkəmədə baxılmadığına görə 6 §1 maddəsi, habelə 6 §2 maddəsi (günahsızlıq prezumpsiyasının pozulması) pozulmuşdur. Bundan əlavə, Məhkəmə onun hələ də həbsdə saxlanmasını qəbuledilməz hal hesab etmiş və Konvensiyanın 10-cu maddəsinin pozulması hallarına son qoyulmasını təmin etmək məqsədi ilə Azərbaycan hakimiyyət orqanlarını onun dərhal azad olunmasını təmin etməyə çağırmışdır ki, bununla da. Komissar cənab Fətullayevə qarşı daha bir cinayət istintaqının aparıldığından və Məhkəmənin qərarının hələ ki, yekun qərar olmadığından xəbərdar olduğu halda belə, yenə də belə fikirdədir ki, bu cinayət işinin xüsusi hallarını nəzərə alaraq, bu qərarı tam və dəqiq icra etmək üçün Eynulla Fətullayevi dərhal azad etmək lazım gələcəkdir.

13. Diffamasiya ittihamları ilə həbsə məhkum edilən digər jurnalistlər "Nota" qəzetinin baş redaktoru Sərdar Əlibəyli və eyni qəzetin müxbiri Fərəməz Novruzoğludur. Bu iki şəxs 8 oktyabr 2009-cu ildə üç ay həbsə məhkum edilmiş, və müvafiq olaraq, 8 fevral və 8 yanvar 2010-cu ildə azad edilmişlər.

14. "Azadlıq" və "Femida 007" qəzetlərində dərc edilən müəyyən məqalələrə görə "Femida 007" qəzetinin baş redaktoru Əyyub Kərimova qarşı Daxili İşlər Nazirinin böhtan barədə ərizəsi əsasında açılan cinayət işi ilə əlaqədar olaraq 2010-cu ilin fevral ayında Bakıda Yasamal rayon məhkəməsi (birinci instansiya) 18 aylıq islah işləri və pul cəriməsi haqqında hökm verdi. Birinci instansiya məhkəməsinin bu qərarına qarşı verilən apellyasiya şikayətinə hazırda baxılmaqdadır. Bakının Nizami rayon məhkəməsi 2010-cu ilin fevral ayında Milli Məclisin üzvü Cəlal Əliyevin irəli sürdüyü şikayəti prosessual dəlillər əsasında rədd etdi: həmin şikayətdə iddiaçı tələb edirdi ki, "Yeni Müsavat" qəzetinin iki jurnalisti böhtan əməlinə görə məhkum edilsinlər. Komissar böhtan əməlini əldə əsas tutaraq, jurnalistlərə qarşı açılan cinayət işlərinin hələ də bir təzyiq vasitəsi kimi istifadə edilməsindən çox narahatdır.

15. Lakin Komissar məmnuniyyətlə qeyd etmək istəyir ki, bir neçə jurnalist həbsxanadan azad edilmişdir, bəzi hallarda isə bu, Prezidentin əfv fərmanı əsasında baş vermişdir: satirik, şair və "Azadlıq" qəzetinin müxbiri Mirzə Sakit (Sakit Zahidov), "İdeal" qəzetinin redaktoru Əli Həsənov, "Bizim Yol" qəzetinin 25 dekabr 2009-cu ildə əfv edilən müxbiri Müşviq Hüseynov, habelə ən son azad edilən, Komissarın öz səfəri əsnasında həbsxana hospitalında görüşdüyü, Novruz bayramı münasibətilə əfv edilən Qənimət Zahidov. Təəssüf ki, digər hadisələr fonunda bu azad etmə halları hökumətin yanlış, təhqiramiz və ya qeyri-peşəkar hesab etdiyi məlumatı və fikirləri dərc edən və ya ifadə edən şəxslərə qarşı hakimiyyət orqanlarının göstərdikləri münasibətdə müşahidə olunan ümumi təmayülün və ya baş verən dəyişikliyin əlaməti deyildir.

16. Komissar ilə apardıqları müzakirələr əsnasında Azərbaycanın hakimiyyət orqanları bəyan etdilər ki, indiyə qədər jurnalistlərin dərc etdikləri məlumatlara görə jurnalistlərə qarşı heç bir halda heç bir cinayət ittihamı irəli sürülməmişdir. Bundan əlavə, belə bir fikir ifadə edildi ki, diffamasiya ilə bağlı qanun müddəaları jurnalistləri məsuliyyətsiz bəyanatlar verməkdən çəkindirir.

17. Lakin elə hallar da olmuşdur ki, Azərbaycanın hakimiyyət orqanları diffamasiya ilə bağlı cinayət işlərində həbs cəzasının tətbiq edilməsinə qarşı çıxmışdırlar. Məsələn, 2009-cu ilin aprel ayında Prezident İlham Əliyev bəyanatla çıxış edərək, "Təzadlar" qəzetinin baş redaktoru Asif Mərzilinin Azərbaycan Beynəlxalq Universitetinin rəhbər işçilərinə və professorlarına böhtan atmaqda ittiham olunaraq, bir il həbs cəzasına məhkum edilməsini tənqid etmişdi. Asif Mərzili elə həmin ayda həbsxanadan azad olundu.

---

[5] Fətullayev Azərbaycana qarşı, Ərizə 40984/07, 22/04/2010-cu il tarixli qərar. Konvensiyanın 44 §2 maddəsində təsbit olunan hallarda, bu qərar yekun qərar qüvvəsinə minəcəkdir.

18. 13 oktyabr 2009-cu ildə diffamasiyaya görə cinayyət məsuliyyətinin ləğv edilməsi məqsədilə Diffamasiya haqqında Qanunun bundan əvvəl təqdim edilmiş layihələrdən sonra həmin Qanunun son variantı Milli Məclisə təqdim edildi. Artıq qeyd edildiyi kimi, diffamasiyaya görə cinayyət məsuliyyətinin ləğv edilməsi üçün Cinayət Məcəlləsinin müvafiq müddəaları təcili surətdə dəyişdirilməlidir. Bundan əlavə, həmin dəyişikliklər həm də ona görə edilməlidir ki, Avropa İnsan Hüquqları Məhkəməsi müvafiq iddiaçıların böhtan və təhqirdə ittiham olunaraq, beş aylıq həbs müddətinə məhkum olunmaları nəticəsində onların ifadə azadlığı hüquqlarının pozulması (Konvensiyanın 10-cu maddəsi) barədə daha bir qərar[6] qəbul etmişdir. Məhkəmə sübut etdi ki, hərçənd iddiaçıların ifadə azadlığı hüquqlarına edilən müdaxiləni əsaslandırmaq olar, lakin onlara qarşı tətbiq edilən cəza tədbiri iddiaçıları böhtanda və təhqirdə ittiham etməklə, nail olmağa çalışılan qanuni məqsədlə nisbətdə qeyri-mütənasib idi. İddiaçıları həbs cəzasına məhkum etməklə, yerli məhkəmələr demokratik cəmiyyətdə mətbuatın ictimai nəzarətçi vəzifəsini yerinə yetirə bilməsi üçün lazım olan şəraitin yaradılmasını tələb edən qaydanı pozmuş olublar.

19. Bu mənada, Məhkəmə bir daha vurğuladı ki, hərçənd hökm vermək mahiyyət etibarilə ölkə məhkəmələrinin səlahiyyətidir, lakin mətbuatda təhqiramiz məlumatların dərc edilməsinə görə həbs cəzasının tətbiq edilməsi yalnız müstəsna hallarda, xüsusilə digər əsas hüquqlar ciddi surətdə pozulduğu hallarda, məsələn, nifrət oyadan nitqin söylənməsi və ya zorakılığa təhrik etmə hallarında, Konvensiyanın 10-cu maddəsində təmin edilən jurnalistlərin ifadə azadlığı ilə bir araya sığa bilər.

20. Komissarın fikrincə, diffamasiyaya görə cinayyət məsuliyyətinin ləğv edilməsi ifadə azadlığının qorunması istiqamətində atılan mühüm addımlardan biridir, və bu sahədə həyata keçirilən hər hansı islahat Avropa İnsan Hüquqları Məhkəməsinin təyin etdiyi standartlara uyğun gəlməlidir.

**2. Jurnalistlərə və hüquq müdafiəçilərinə qarşı zorakılıq, təqib və hədələmə halları**

21. Komissar jurnalistlərə və ya insan hüquqları müdafiəçilərinə qarşı yönələn və təhqiq edilməyən hədələr, təqib və zorakılıq halları barədə ona verilən məlumatlardan xüsusilə narahatdır.[7] Bundan əlavə, bir sıra KİV əməkdaşı belə bir məsələdən narahat olduqlarını bildirdilər ki, 2010-cu ildə Azərbaycanda qarşıdan gələn parlament seçkiləri ilə əlaqədar olaraq, müxalifətlə əlaqəli olan jurnalistlərə bu cür təzyiqlərin göstərilməsi hallarının sayı arta bilər.

22. Komissarın səfəri 2 mart 2005-ci ildə Bakıda qətlə yetirilən jurnalist Elmar Hüseynovun ölümünün beşinci ildönümünün qeyd olunmasına təsadüf etdi. Cənab Hüseynovun qətli barədə aparılan rəsmi istintaq Azərbaycan hakimiyyət orqanlarının "əsas icraçılar" hesab etdikləri iki nəfər şübhəli şəxsin Gürcüstanda gizlənməsi qənaətinə gəldiyi halda,[8] müxtəlif KİV əməkdaşları və qeyri-hökumət təşkilatları belə bir fikir irəli sürdülər ki, bu cinayət işi lazımi dərəcədə araşdırılmamışdır. Komissar hakimiyyət orqanlarını bu qətlin icraçılarını və sifarişçilərini dərhal ədalət məhkəməsi qarşısına gətirməyə çağırır.

---

[6] Mahmudov və Ağazadə Azərbaycana qarşı, Ərizə 35877/04, 18/12/2008 tarixli qərar. Həm də insan haqlarına həsr olunan və 4 mart 2010-cu ildə keçirilən 1078-ci iclasda Nazir müavinləri tərəfindən bu işə bağlı qəbul edilən, "hakimiyyət orqanlarını Azərbaycan qanunvericiliyinin müvafiq müddəalarını [Məhkəmənin] presedent hüququna uyğunlaşdırmağa, məqsədəuyğun hallarda, xüsusilə cəza tədbirlərinin mütənasibliyi məsələsini nəzərdən keçirərkən, Avropa Şurasının mövcud təcrübəsindən istifadə etməyə çağıran" qərarla tanış olun.

[7] Məsələn, media azadlığına hörmət haqqında Avropa Şurası Parlament Asambleyasının hesabatına baxın (yanvar, 2010-cu il).

[8] Azərbaycanın APA Mətbuat Agentliyi tərəfindən 19 mart 2010-cu ildə dərc edilən, Azərbaycanın Milli Təhlükəsizlik Naziri Eldar Mahmudovun bəyanatından gətirilən sitatlara baxın. (http://en.apa.az/news.php?id=118301).

23. Komissar  həm həbs edilməsinin səbəblərindən, həm də həbsxanada saxlandığı şəraitdən narahat olduğuna görə, habelə yaşının çox, səhhətinin isə pis olmasını nəzərə alaraq, cinayət işini diqqətlə izlədiyi 68 yaşlı professor Novruzəli Məmmədovun ölüm xəbərini eşidəndə, dərindən kədərləndi. Talışdilli *Tolışi Sədo* qəzetinin redaktoru Novruzəli Məmmədov dövlətə xəyanətdə ittiham olunmuşdu və bağlı qapılar arxasında keçirilən məhkəmə iclasları nəticəsində 2007-ci ilin fevral ayında on illik həbs cəzasını çəkməyə başlamışdı.

24. Komissar  Azərbaycanın hakimiyyət orqanlarına məktub yazaraq, N. Məmmədovun ölümünə səbəb olan hadisələrin necə baş verməsi, o cümlədən onun müayinə edilməsi, diaqnozunun təyin edilməsi və müalicəsi, habelə ölümünün səbəbi barədə məlumat verməyi xahiş etmişdi. Öz yazılı cavablarında hakimiyyət orqanları Komissara bildirdilər ki, Novruzəli Məmmədov 28 iyul 2009-cu ildə səhhəti pisləşdiyinə görə həbsxana hospitalına keçirilmişdi. O, hospitalda bir neçə həkim tərəfindən müayinə olunmuşdu və "diaqnoza uyğun olaraq ona müvafiq müalicə təyin olunmuşdu". 17 avqust 2009-cu ildə onun səhhəti qəfildən pisləşdi və təcili tibbi müdaxiləyə baxmayaraq, o, saat 18.00-da vəfat etdi. Bu ölümün səbəbi "beyin damarlarının trombozu nəticəsində beyindəki qan dövranının kəskin surətdə pozulması" kimi müəyyən edildi.

25. Cənab Məmmədovun həyat yoldaşı və oğlu jurnalistin ölümünə görə Maliyyə Nazirliyinə, Penitensiar Xidmətə, Ədliyyə Nazirliyinin Baş Tibb İdarəsinə, 15 saylı həbsxanaya və həbsxana hospitalına qarşı məhkəmə iddiası irəli sürdülər. 27 yanvar 2010-cu ildə yerli məhkəmə həmin iddianı rədd etdi. Digər hallarla yanaşı, Novruzəli Məmmədova lazımi tibbi xidmət göstərilməməsi ehtimalının müəyyən narahatlıqlar doğurduğunu nəzərə alaraq, hakimiyyət orqanları, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna uyğun olaraq, onun olumünün səmərəli və müstəqil qaydada təhqiq edilməsini və təhqiqat barədə məlumatın onun qohumlarına çatdırılmasını təmin etməlidirlər.[9]

26. Komissar  müşahidə etdi ki, müəyyən hallarda jurnalistləri təqib etmək üçün və ya daha geniş miqyasda arzu olunmayan səsləri susdurmaq üçün Cinayət Məcəlləsinin müxtəlif müddəaları, məsələn irqi, etnik və dini nifrətə təhrik, xuliqanlıq, vergidən yayınma, narkotik maddə saxlama və terrorizm haqqında müddəalar istifadə olunur. Bunu Qənimət Zahidova qarşı aparılan məhkəmə istintaqının timsalında görmək olar: o, xuliqanlığa görə dörd il həbsə məhkum edilmişdi. Bakıda gənclər hərəkatının iki fəal iştirakçısı olan və əksər hallarda "bloqerlər" adlandırılan Emin (Milli) Abdullayevə və Adnan Hacızadəyə qarşı aparılan cinayət təhqiqatı da bir çox cəhətdən Qənimət Zahidovun cinayət işinə bənzəyir.

27. Komissar  Məzunlar Şəbəkəsinin həmtəsisçisi Emin Abdullayevlə və OL! Gənclər hərəkatının həmtəsisçisi Adnan Hacızadəylə Kürdəxanı istintaq təcridxanasında 4 mart 2010-cu ildə görüşdü. Hər iki gənc Azərbaycandakı siyasi vəziyyət haqqında tənqidi fikirlər söylədiklərinə və yaydıqlarına görə məşhurlaşmışdırlar. Onlar 8 iyul 2009-cu ildə, gecə baş verən hadisələr barədə öz versiyalarını təqdim edərək, bildirdilər ki, onlar Bakı restoranlarının birində onlara qarşı edilən fiziki hücum barədə şikayət ərizəsi vermək üçün polis şöbəsinə getmişdilər. Lakin sonra onların özləri həbs olundular və onlara qarşı "xuliqanlıq" və "az ağır bədən xəsarətlərinin yetirilməsi" ittihamları irəli sürüldü. 11 noyabr 2009-cu ildə cənab Abdullayev iki il yarım, cənab Hacızadə isə iki il həbs cəzasına məhkum olundular. Onlara qarşı irəli sürülən ittihamlar və verilən hökmlər Bakı Apellyasiya Məhkəməsinin 10 mart 2010-cu il qərarı ilə təsdiq olundu. İstintaq və məhkəmə işinə baxılması əsnasında qüsurlara yol verilməsi, o

---

[9] Məhkəmə bir neçə işə baxarkən vurğulamışdı ki, həbsxanada baş verən ölüm hallarının müstəqil və çevik təhqiqatının aparıla bilməməsi yaşamaq hüququnun (Konvensiyanın 2-ci maddəsi) pozulması deməkdir. Məhkəmənin fikrincə, sadəcə həbsdə baş verən ölüm hadisəsi barədə məlumatın hakimiyyət orqanlarına çatdırılması faktı 2-ci maddədə təsbit olunan ölümün baş verdiyi şəraitin çevik təhqiqatını aparmaq öhdəliyinin elə həmin fakt əsasında qüvvəyə minməsini təmin edir; həmin təhqiqat əsnasında, məqsədəuyğun olduğu təqdirdə, meyid yarılır və pis rəftarın və zədələnmələrin mümkün əlamətləri tam və dəqiqliklə qeydə alınır, habelə klinik məlumatlar, o cümlədən ölümün səbəbi qərəzsiz tərzdə təhlil olunur. (Salman Türkiyəyə qarşı, Ərizə 21986/93, 27/06/2000-ci il tarixli qərar, 105-ci bənd).

cümlədən iki təqsirləndirilən şəxsin təqdim etdiyi bəzi fotoşəkil və videoçəkiliş dəlillərini nəzərə almaqdan məhkəmənin imtina etməsi bir çox şəxsdə narahatlıq doğurmuşdu.

28. Komissar ilə aparılan müzakirə əsnasında gənclər hərəkatının iki fəal iştirakçısı bildirdilər ki, Kürdəxanı istintaq təcridxanasında, birgə saxlandıqları kamerada onlarla dürüst rəftar edilir. Lakin Komissarda belə bir məlumat narahatlıq doğurdu ki, onların apellyasiya şikayəti rədd edildikdən sonra, hər iki gənc 2010-cu ilin aprel ayında digər həbs müəssisələrinə keçirildilər: cənab Hacızadə - Bakıdan 40 km aralı yerləşən Qızıldaşdakı 14 saylı həbsxanaya, cənab Abdullayev isə - Bakıdan 120 km aralı yerləşən 5 saylı Salyan həbsxanasına keçirildi. 2007-ci ildə, Azərbaycana etdiyi əvvəlki səfər əsnasında Komissar 14 saylı həbsxananın heyətinin məhbuslara qarşı qeyri-insani rəftar nümayiş etdirməsi və zorakı hücumlar etməsi barədə bir sıra iddialar almışdı.[10]

29. Komissar Avropa İnsan Hüquqları Məhkəməsinin yaxşı bərqərar olmuş presedent hüququnu xatırlatmaq istərdi: həmin hüquqda vurğulanmışdır ki, Konvensiyanın 10-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq, ifadə azadlığı təkcə rəğbətlə qarşılanan, yaxud qeyri-təhqiramiz və ya neytral hesab edilən "məlumata" və ya "fikirlərə" deyil, həm də Dövlətin və ya əhalinin hər hansı təbəqəsinin hisslərinə toxunan, sarsıdan və ya narahat edən "məlumata" və ya "fikirlərə" şamil edilə bilər. Buna görə də jurnalistlərin və ya digər şəxslərin ifadə etdikləri fikirlərə və ya rəylərə görə, onlara qarşı cinayət hüququ müddəalarının qərəzli surətdə tətbiq edilməsinin qarşısını almaq vacibdir.

## 3. Məlumat azadlığı

*Məlumat əldə etmək imkanı*

30. Komissarın 2008-ci il hesabatında qeyd edildiyi kimi, dövlət orqanlarının malik olduqları məxfi olmayan məlumatı əldə etmək imkanı həm məlumat azadlığının, həm də ifadə azadlığının mühüm ünsürlərindən biridir. Yalnız ictimaiyyət üçün maraq kəsb edən məsələlər barədə məlumatı əldə etmək imkanı həddindən artıq məhdudlaşdırılmadığı təqdirdə, jurnalistlər həmin məlumatı yaya biləcəklər.

31. 2005-ci ildə Azərbaycanda qəbul edilən Məlumat azadlığı haqqında Qanun geniş ictimaiyyət tərəfindən beynəlxalq standartlara uyğun gələn və ən yaxşı təcrübələri əks etdirən nümunəvi qanun hesab olunur. Lakin həmin qanunun tətbiqi vətəndaş cəmiyyətinin nümayəndələri tərəfindən çox qeyri-qənaətbəxş qiymətləndirilmişdir, çünki hakimiyyət orqanları məlumata dair sorğulara cavab verməkdən imtina edirlər və ya natamam cavablar verirlər, qanunda təsbit olunan prosessual tələblər yerinə yetirilmir, məlumat təqdim etmək üçün lazım olan maddi-texniki baza yoxdur. Bundan əlavə, 2005-ci il qanununda həmçinin həmin qanun qüvvəyə mindikdən sonra altı ay ərzində "Məlumat hüququ üzrə Müvəkkilin" təyin edilməsi tələbi təsbit olunmuşdur. Səfər dövründə bu vəzifəyə nə kim isə təyin edilmişdi, nə də kimin isə təyin edilməsi gözlənilirdi. Buna görə də, Komissar təəssüf hissi ilə bildirir ki, məlumat əldə etmək imkanının olmaması Azərbaycanda struktur problemi olaraq qalmaqdadır.

*Məlumatı yaymaq hüququ*

32. Komissarın səfəri gedişatında müxtəlif həmsöhbətlər son zamanlar qanunvericilikdə edilən və jurnalistlərin fəaliyyətinə, o cümlədən onların məlumat ötürmək hüquqlarına mənfi təsir göstərə biləcək dəyişikliklərdən narahat olduqlarını bildirdilər.

33. 18 mart 2009-cu ildə ümumxalq səsverməsi yolu ilə Azərbaycan Konstitusiyasının 32-ci maddəsinin (şəxsi toxunulmazlıq hüququ) III bəndində (şəxsin özəl həyatının qorunması) düzəliş edildi. Həmin bəndə belə bir cümlə əlavə edildi: "Qanunla müəyyən edilmiş hallar

[10] CommDH(2008)2, 53-cü bənd.

istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz." Venesiya Komissiyası bu düzəlişi tənqid edən tərəflərdən biri idi,[11] və o, vurğulamışdı ki, bu cümlə bir problemin meydana gəlməsinə imkan verir, o mənada ki, ictimai yığıncaqlarda və ya ictimai maraq kəsb edən yığıncaqlarda çəkiliş aparılması müstəsna hal kimi həmin cümlədə təsbit olunmamışdır, yəni hər hansı jurnalist bu cür yığıncaqlarda şəkil çəkmək və ya video çəkiliş aparmaq hüququna yalnız o halda malik olacaqdır ki, əvvəlcədən çəkilişə düşəcək şəxsin razılığını almış olsun və ya ən azı onu xəbərdar etmiş olsun. Venesiya Komissiyası onu da bildirdi ki, nəticə etibarilə, "xüsusilə elektron KİV-ləri təmsil edən arzuolunmayan jurnalistləri ictimai maraq kəsb edən hadisələrin işıqlandırılmasından kənarlaşdırmaq üçün 32 (III) maddəsi təcrübədə istifadə oluna bilər. Həm də, əgər hər hansı jurnalist hər hansı siyasətçini və ya məmuru rüşvət aldığı yerdə kameraya çəkərsə və ya onun səsini diktofona yazarsa, onda bu, yəqin ki, həmin siyasətçinin və ya məmurun əvəzinə, jurnalistin özünə qarşı ittiham irəli sürməyə əsas verəcəkdir. Buna görə də, rüşvətxorluq iddialarını araşdıran təhqiqatçı jurnalistikanın qarşısında ciddi maneələr yaranmış ola bilər."

34. Konstitusiyanın dəyişilmiş 32(III) maddəsinə istinad edərək və Prezidentin qanunvericilikdə dəyişiklik etmək təşəbbüsü ilə çıxış etmək hüququndan istifadə edərək, Prezident İlham Əliyev Milli Məclisə belə bir təklif təqdim etdi, və həmin təklif Komissarın səfərindən bir qədər əvvəl, 12 fevral 2010-cu ildə qəbul edildi. Konstitusiyanın 32(III) maddəsinə əlavə edilən cümləyə bənzər cümlə indi Məlumat Azadlığı haqqında Qanunun 14-cü maddəsində, Kütləvi İnformasiya Vasitələri haqqında Qanunun 60-cı maddəsində, Əməliyyat-axtarış Tədbirləri haqqında Qanunun 21-ci maddəsində və Kəşfiyyat və Əks-kəşfiyyat Fəaliyyəti haqqında Qanunun 4.6 maddəsində də vardır.

.

35. Komissar Konstitusiyanın dəyişilmiş 32(III) maddəsi barədə Venesiya Komissiyasının narahat olmasını düzgün hesab edir. O, eynilə son zamanlar qanunvericlikdə edilən digər dəyişikliklərdən də narahat olduğunu bildirir. Bu müddəalar Konvensiyanın 10-cu maddəsinin və Avropa İnsan Hüquqları Məhkəməsinin müvafiq presedent hüququnun tətbiq edilməsinə xeyli mane ola bilər. Məhkəmə dəfələrlə vurğulamışdır ki, mətbuat demokratik cəmiyyətdə mühüm vəzifə yerinə yetirir. Hərçənd mətbuat xüsusilə başqalarının nüfuzuna və hüquqlarına münasibətdə, habelə məxfi məlumatın açıqlanmasının qarşısını almaq ehtiyacını nəzərə alaraq, müəyyən hədlərdən kənara çıxmamalıdır, lakin yenə də mətbuatın vəzifəsi ictimai maraq kəsb edən bütün məsələlər, o cümlədən siyasi məsələlər haqqında məlumat və fikirləri öz öhdəliklərinə və səlahiyyətlərinə uyğun gələn tərzdə çatdırmaqdır. Məhkəmənin fikrincə, sadəcə məlumat materialının qanunsuz, yəni məlumata aidiyyatı olan şəxsin razılığı olmadan və ya həmin şəxs xəbərdar edilmədən əldə edilmiş olması faktı həmin məlumatı yayımlayan KİV-i Konvensiyanın 10-cu maddəsində təmin edilən toxunulmazlıq hüququndan məhrum etməyə əsas vermir.[12]

### 4. Etik jurnalistika və medianın rəngarəngliyi

36. Öz səfəri əsnasında Komissar 2003-cu ildə mətbuatın özünütənzimləmə orqanı kimi təsis edilmiş ictimai müəssisə olan Mətbuat Şurasının Sədri Əflatun Amaşovla görüşdü və Mətbuat Şurası tərəfindən dərc edilən "şantajçı qəzetlərin qara siyahısının" mövcud olduğunu öyrəndi. Jurnalistikanın etik qaydalarını pozmuş olduğu iddia edilən və Mətbuat Şurasının fikrincə, şantajdan istifadə edən 90 qəzetin adı həmin siyahıda verilmişdir. Mətbuat Şurasının sədri izah etdi ki, siyahını dərc etməkdə məqsəd ictimaiyyəti məlumatlandırmaq idi ki, hər kəs hansı qəzetlərin etibarlı olduğunu, hansıların isə etibarlı olmadığını bilsin. Qara siyahıya daxil edilən bir sıra qəzet Mətbuat Şurasına müraciət edərək, bəyan etmişdi ki, bu siyahıda verilən mühakimələr əsassızdır və onların nüfuzuna xələl gətirir.

[11] CDL(2009)026, Rəy 518/2008, 6 mart 2009-cu il.
[12] Radio Twist S. A.. Slovakiyaya qarşı, Ərizə 62202/00, 19/12/2006-cı il tarixli qərar, 62-ci bənd.

37. Jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinin təmin edilməsinə ehtiyac olduğunu etiraf etməklə yanaşı, Komissar bu siyahının dərc edilməsinin səmərəli olacağına çox böyük şübhə etdiyini bildirdi, çünki Mətbuat Şurası hər hansı qəzetin adını siyahıya daxil etmək və ya siyahıdan çıxarmaq barədə qərar qəbul etmək səlahiyyətinə malik olan yeganə orqandır və bunun nəticəsində qərəzli qərarların qəbul edilməsi təhlükəsi yarana bilər. Əslində, jurnalistikanın keyfiyyətini təmin etməyin digər, daha səmərəli üsulları vardır, məsələn, lazımi dəqiqliklə və dürüstlüklə tətbiq edilən etik qaydalar məcəlləsinin qəbul edilməsi, özünütənzimləmə qaydasının təyin edilməsi, habelə bütün KİV subyektlərinin iştirakı ilə KİV-in keyfiyyəti haqqında açıq və geniş müzakirənin keçirilməsi yolu ilə bu məqsədə nail olmaq mümkündür.

38. Azərbaycanda medianın rəngarəngliyi məsələsinə toxunan Komissar 1 yanvar 2009-cu il tarixdən BBC, Azadlıq/Azad Avropa, Amerikanın Səsi və Avropa Plyus radio stansiyalarının yerli verilişlərinin yerli ultra-qısa və orta dalğa tezliklərində yayımlanmasının Milli Televiziya və Radio Şurası (MTRŞ) tərəfindən qadağan edilməsi xəbərindən təəsüfləndiyini bildirdi.

## II. Birləşmək azadlığı

### 1. Qeydiyyatdan keçmə qaydası

39. Azərbaycanda QHT-lərin qeydiyyatdan keçməsi qaydasının qüsurları uzun müddətdir ki, Komissarı narahat edir. Onun ən son səfəri əsnasında həmsöhbətləri şikayət etdilər ki, öz təşkilatlarını Ədliyyə Nazirliyində qeydiyyatdan keçirə bilmirlər. Nəticə etibarilə, onlar hüquqi şəxs statusunu əldə edə bilmirlər.

40. Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycanda birliklərin qeydiyyatdan keçirilməsinə dair ərizələrə baxılmaması hallarını bir neçə dəfə təhqiq etmişdi.[13] Məhkəmə bu işlər barədə qəbul etdiyi qərarlarda Ədliyyə Nazirliyinin dövlət qeydiyyatı barədə qətiyyətli qərar qəbul edə bilməməsini və ya qanuni vaxt hüdudları daxilində bu cür ərizələrə baxa bilməməsini əslində birlikləri qeydiyyata almaqdan imtina etməyə bərabər tutmuş və Azərbaycanı Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsində təmin edilən birləşmək hüququnu pozmaqda ittiham etmişdir. Məhkəmə belə qənaətə gəlmişdir ki, yerli qanunvericilikdə bu cür əhəmiyyətli gecikdirmələrə əsas verən heç bir müddəa yoxdur, və Məhkəmə Nazirliyin iş yükünün ağır olması nəticəsində bu cür gecikdirmələrin baş verdiyini səbəb gətirən hökumətin fikri ilə razı olmamışdır. Komissar qeyd edir ki, bu qərarların icra olunması məsələsi hələ də Avropa Şurasının Nazirlər Komitəsində baxılmaqdadır.

41. Qeyd olunan dövrdə qüvvədə olan daxili qanunvericilik Nazirliyin vaxtında tədbir görmədiyi təqdirdə, avtomatik qeydiyyatın baş verməsini təmin etmirdi, habelə Nazirliyin yekun qərar qəbul etmədən sənədləri ən çox neçə dəfə geri qaytara biləcəyi təsbit olunmamışdı. Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Dövlət Reyestri haqqında qəbul edilən və bu qüsurları aradan qaldırmağa yönəldilən yeni Qanun 9 yanvar 2004-cü ildə qüvvəyə mindi. Həmin qanun qeydiyyatın 40 gün ərzində mütləq həyata keçirilməsini təmin edir və 40 gün ərzində ərizəyə cavab verilə bilmədiyi təqdirdə, təşkilat dövlət tərəfindən qeydiyyata alınmış hesab edilir.

42. Komissar Ədliyyə Naziri ilə apardığı danışıqlar əsnasında qeydiyyat məsələsini qaldırdı. Nazirin bildirdiyi kimi, 2009-cu ildə 162 QHT və 314 KİV orqanı Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Ümumiyyətlə Azərbaycanda 3352 QHT, 4100 KİV orqanı və 54 siyasi partiya qeydiyyata alınmışdır. Nazir vurğuladı ki, onun tabeliyində olan idarələr qeydiyyat haqqında ərizələrə qanunda nəzərdə tutulan 40 günlük vaxt həddi daxilində cavab verməyə

[13] Ramazanova və başqaları Azərbaycana qarşı, Ərizə 44363/02, 01/02/2007-ci il tarixli qərar; Nəsibova Azərbaycana qarşı, Ərizə 4307/04, 18/10/2007-ci il tarixli qərar; Əliyev və başqaları Azərbaycana qarşı, Ərizə 28736/05, 18/12/2008-ci il tarixli qərar; İsmayılov Azərbaycana qarşı, Ərizə 4439/04, 17/01/2008-ci il tarixli qərar.

çalışırlar. O, qeyd etdi ki, qeydiyyatda baş verən gecikmələrin səbəbi adətən əlavə sorğular aparmaq və ya qeydiyyat əməliyyatını yerinə yetirmək üçün təqdim olunan sənədlərdəki xətaları düzəltmək zərurəti ilə izah olunur. Nazir bildirdi ki, qanunvericiliyin dəyişdirilməsi əsas problemləri həll etmək məqsədinə nail olmağa imkan yaratdı; o, həmçinin qeydiyyat haqqında ərizələrə baxılmasının çevik və səmərəli qaydada, Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə uyğun olaraq həyata keçirilməli olduğunu təsdiq etdi. Komissar Nazirin QHT-lərin qeydiyyatını asanlaşdırmaq üçün qətiyyətli addımlar atmağa hazır olmasını rəğbətlə qarşılayır.

43. Bəzi dini icmaların təkrar qeydiyyatdan keçməkdə çətinlik çəkmələri də müzakirə olundu. Milli Məclis Din Azadlığı haqqında Qanunda dəyişikliklər etdikdən və həmin dəyişikliklər 2009-cu ilin may ayında qüvvəyə mindikdən sonra, Azərbaycanın bütün dini icmalarının üzərinə 1 yanvar 2010-cu ilə qədər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində təkrar qeydiyyatdan keçmək öhdəliyi qoyuldu. Lakin verilən məlumata görə, həqiqətdə əvvəllər qeydiyyatdan keçmiş 534 dini icmanın yarısından az hissəsi təkrar qeydiyyatdan keçə bildi. Komissara həm də belə bir məlumat verildi ki, hətta bəzi icmaların təkrar qeydiyyatdan keçmək barədə ərizələri rədd edilib. Komissarın fikrincə, təkrar qeydiyyatdan keçmək öhdəliyinin bütün dini icmaların üzərinə qoyulması və əks təqdirdə onların qanuni fəaliyyətinə son qoyulması kifayət qədər sərt tələbdir və istənilən halda bir qədər asanlaşdırılmalıdır.

**2. QHT-lər haqqında qanuna edilən dəyişikliklər**

44. QHT-lər ilə sıx münasibətlər qurulması və QHT-lərin ictimai əhəmiyyət kəsb edən təşəbbüslərinə yardım etmək üçün dövlət büdcəsindən maliyyə vəsaitləri ayrılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin tabeliyində olan Qeyri-hökumət Təşkilatlarına Dövlət Yardımı Şurası 2007-ci ildə təsis edildi. .Lakin əslində bəzi QHT-lər yenə də hakimiyyət orqanları tərəfindən təqib edildikləri barədə şikayət edirlər; məsələn, onlar öz ofislərindən məcburi çıxardılırlar, qərəzli təftişlərə məruz qalırlar və s. Verilən məlumata görə, xüsusilə lesbiyanların, qeylərin, biseksualların və transgenderlərin (LGBT) hüquqlarını qoruyan QHT-lər telefon danışıqlarının qanunsuz dinlənilməsi yolu ilə əldə olunan məlumatlardan istifadə edərək şantaja məruz qoyulmuşlar.

45. 2009-cu ilin iyun ayında Komissar Qeyri-hökumət Təşkilatları (İctimai Birliklər və Fondlar) haqqında Qanuna dəyişikliklər edilməsi barədə təklifin layihəsinin qəbul edildiyi təqdirdə, Azərbaycanda birləşmək azadlığını məhdudlaşdıracağından narahat olduğunu bildirdi. Nazirlər Komitəsinin Sədri, Parlament Asambleyasının Prezidenti və Avropa Şurasının Baş Katibi də təklif olunan dəyişikliklərin Azərbaycanda vətəndaş cəmiyyətinin normal fəaliyyətinə ciddi surətdə mane ola biləcəyindən narahat olduqlarını bildirdilər. Nəhayət ki, ən təhlükəli dəyişikliklər, yəni Azərbaycanın inzibati vahidlərinin azı üçdə birində filialı olmayan və ya öz büdcəsinin yarısından çoxunu xaricdən alan QHT-lərin ölkə miqyasında fəaliyyət göstərmələrini qadağan edən dəyişiklikləri mətndən çıxarmaq mümkün oldu. Lakin Milli Məclisin 30 iyun 2009-cu ildə qəbul etdiyi dəyişikliklərdə bəzi sərt müddəalar saxlandı, məsələn, öz fəaliyyətlərini hər hansı rəsmi beynəlxalq sazişə əsaslandırmayan xarici QHT-lərin fəaliyyətinin qadağan edilməsi barədə müddəa saxlandı.

46. Bundan əlavə, 21 dekabr 2009-cu ildə qəbul edilən Prezident Fərmanında tələb olunurdu ki, QHT-lərin aldıqları və verdikləri bütün qrantlar Ədliyyə Nazirliyində qeydiyyatdan keçməlidir, bu tələbi yerinə yetirməyən təşkilatlar isə cərimə ödəməlidirlər. Ədliyyə Naziri izah etdi ki, əvvəllər bu məlumat könüllü surətdə, bəyannamə şəklində təqdim olunurdu, bəyannamələrdə göstərilən qrantların sayı isə iki il (2007-09) ərzində dörd dəfə artmışdı, bu isə ona dəlalət edir ki, qrantlar barədə hesabat vermək QHT-lərin çoxu üçün heç vaxt çətin olmamışdır. Nazirin bildirdiyi kimi, bu tədbiri tətbiq etməkdə məqsəd şəffaflığı artırmaq və "çirkli pulların yuyulmasına" qarşı mübarizə aparmaq idi. Hətta belə olan təqdirdə, Komissar yenə də QHT-lərin fəaliyyətini lazımsız dərəcədə sərt olan qaydada tənzimləmək cəhdlərindən narahatdır və hakimiyyət orqanlarını birləşmək azadlığını təmin etmək üçün daha çox səy göstərməyə çağırır.

**III. Hüquq-mühafizə orqanları əməkdaşlarının davranışı**

47. Komissar hələ də Azərbaycanda hüquq-mühafizə orqanları əməkdaşlarının vətəndaşlara qarşı pis davranmaları barədə məlumatlar almaqdadır. Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycan barədə qəbul etdiyi qərarların üçündə 3-cü maddənin (işgəncənin qadağan edilməsi) pozulduğunu qənaətinə gəlib: məsələn, Məhkəmədə baxılan sonuncu işdə[14] 3-cü maddənin həm maddi-hüquqi, həm də prosessual cəhətdən pozulduğu sübuta yetirildi. Həmin məhkəmə işi 16 oktyabr 2003-cü ildə etiraz nümayişinin dağıdılması əsnasında iddiaçıya qarşı tətbiq edilən qeyri-insani və alçaldıcı rəftarla əlaqədar idi; bu cür rəftar nəticəsində iddiaçı bir gözünü itirmişdi (3-cü maddənin maddi-hüquqi cəhətdən pozulması). Bu məhkəmə işi həm də iddiaçının şikayətindən sonra iddiaçıya zərbə vuran polis əməkdaşını müəyyən etmək və məsuliyyətə cəlb etmək üçün səmərəli təhqiqatın aparılmaması ilə əlaqədar idi (3-cü maddənin prosessual cəhətdən pozulması). Komissar özünün hakimiyyət orqanları ilə görüşləri əsnasında onu narahat edən, hüquq-mühafizə orqanları əməkdaşlarının davranışını və polis haqqında şikayətlərə baxılması üçün müstəqil orqanın yaradılması ehtiyacını müzakirə etdi.

48. Daxili İşlər Naziri Komissara qanunu pozmuş polis əməkdaşlarını cəzalandırmaq üçün görülən tədbirlər barədə məlumat verdi. Ya bilavasitə fiziki şəxs tərəfindən, ya da Ombudsman vasitəsilə verilən şikayət qəbul edildikdən sonra[15] Daxili İşlər Nazirliyinin tərkibində olan Daxili Təhqiqatlar Bölməsi həmin şikayətə baxır. Sonra cinayət ünsürünə malik olan işlər baxılmaq üçün Baş Prokurora göndərilir və onun tərəfindən təhqiq olunur, inzibati cəza tədbirləri barədə qərarı isə Nazirin özü qəbul edir. 2007-09-cu illərdə 800 nəfərdən çox fiziki şəxsin şikayəti Daxili İşlər Nazirliyinə daxil olmuşdur, və 614 nəfər polis əməkdaşı insan hüquqlarını pozduğuna görə cinayət məsuliyyətinə cəlb edilmişdir və ya inzibati cəzalara məhkum edilmişdir. Həmin cinayət işlərindən 16-sına yerli məhkəmələrdə baxılmış, 85 əməkdaş Nazirlik sistemindən xaric edilmişdir, 66 əməkdaş öz vəzifəsindən azad edilmişdir, beş əməkdaşın rütbəsi endirilmiş, 442 əməkdaş isə digər inzibati cəzalara məhkum edilmişdir. Cinayət istintaqının başladılmasına səbəb olan həmin 16 cinayət işi çərçivəsində 12 polis zabiti 6 aydan 13 ilədək müddətə həbs cəzasına məhkum edilmiş, dörd zabit isə cərimə ödəməyə məhkum edilmişdir.

49. Komissar polisin davranışını yaxşılaşdırmaq və vətəndaşlarla pis rəftar edən əməkdaşları məsuliyyətə cəlb etmək üçün hakimiyyət orqanlarının həyata keçirdiyi praktik tədbirləri rəğbətlə qarşılayır. Bununla yanaşı, Komissar vurğulamaq istəyir ki, polisə qarşı şikayətlərə baxan orqanın təşkilati və praktik cəhətdən müstəqil olması və onun təhqiqat səlahiyyətlərinin həqiqi tələbata tam uyğun gəlməsi həmin şikayətlərin çevik surətdə təmin edilməsi baxımından həlledici əhəmiyyət kəsb edir. Buna görə də, Komissar hakimiyyət orqanlarını polisin pis rəftarı barədə daxili inzibati təhqiqatların aparılmasının hazırki qaydasını dəyişdirməyə və polis haqqında şikayətlərə baxan müstəqil orqan, məsələn, ixtisaslaşmış idarə və ya daimi komissiya yaratmağa dəvət edir. Bu baxımdan, Komissarın polis haqqında şikayətlərə Müstəqil və səmərəli surətdə baxılması barədə rəyi ilham mənbəyi ola bilər.[16]

50. Azərbaycanın hakimiyyət orqanları həm də Komissara hüquq-mühafizə orqanlarının əməkdaşları üçün keçirilən insan hüquqları üzrə təlim kurslarının əhatə dairəsinin

---

[14] Muradova Azərbaycana qarşı, Ərizə 22684/05, 02/04/2009-cu il tarixli qərar. Həmçinin Məmmədovun (Cəlaloğlu) Azərbaycana qarşı iddiasına bax, Ərizə 34445/04, 11/01/2007-ci il tarixli qərar; həmin iddia polis şöbəsində saxlanılan şəxslə pis rəftar edilməsinə aid idi. Habelə Hümmətov Azərbaycana qarşı, Ərizə 9852/03, 29/11/2007-ci il tarixli qərar; bu ərizə həbsxanada vərəmə yoluxan bir məhbusun tam tibbi müalicə imkanından məhrum edilməsinə aid idi.

[15] İnsan Haqları Müvəkkilinin illik hesabatından məlum oldu ki, 2009-cu ildə daxil olan şikayətlərin 16,8%-i polisdən narazılıq hallarına aid idi.

[16] CommDH(2009)4, 12 mart 2009-cu il.

genişləndirilməsinə dair müxtəlif təşəbbüslərin irəli sürüldüyünü, məsələn, Avropa İnsan Hüquqları Konvensiyasına həsr olunan seminarların təşkil edildiyini bildirdilər. Komissar vurğuladı ki, təlimlər bütün hüquq-mühafizə orqanlarının əməkdaşlarına insan hüquqları və dəyərləri barədə əsas biliklərin aşılanmasına və cəzasızlıq hissinin hər hansı qalıqlarının aradan qaldırılmasına həsr olunan əhatəli və cari strategiyanın tərkib hissəsi olmalıdır.

51. Azadlıqdan məhrumetmə yerlərində işgəncənin və pis rəftarın qarşısının alınmasının ən yaxşı üsulu müstəqil ekspertlərin, məsələn, İşgəncənin, Qeyri-insani və ya Alçaldıcı Rəftarın və ya Cəzanın Qarşısının alınması üzrə Avropa Komitəsinin (İQAK) müntəzəm səfərlərinin təşkil edilməsidir. Bu mənada, Komissar BMT-nin İşgəncəyə və digər Qəddar, Qeyri-insani və ya Alçaldıcı Rəftara və ya Cəzaya qarşı Konvensiyasının Fakultativ Protokolunun (İQK-FP) 28 yanvar 2009-cu ildə ratifikasiya edilməsini rəğbətlə qarşılayır. Bu protokol ratifikasiya edildikdən sonra Ombudsman milli preventiv mexanizm gismində tanındı və həbsxanalara müntəzəm səfərlərini davam etdirdi. Lakin Ombudsmanın İdarəsinin təsis sənədlərinə uyğun olaraq, bütün dövlət orqanlarına nəzarət etməsinə icazə verilmir.[17] Komissar həm də bir məsələdən narahatdır ki, həbsxanalara nəzarət etmək məqsədilə 2006-cı ildə yaradılan və QHT nümayəndələrindən ibarət olan İctimai Komitə əvvəlcədən xəbərdarlıq etmədən həbsxanalara səfər edə bilmir və istintaq təcridxanalarına buraxılmır. QHT nümayəndələri onu da qeyd etdilər ki, 2009-cu ilin aprel ayından onların məhbuslarla görüşmələrinə artıq icazə verilmir.

52. Azadlıqdan məhrum edilmiş şəxslərə qarşı işgəncənin və pis rəftarın qarşısını almaq üçün bir sıra müdafiə tədbirləri həyata keçirilməlidir: onlara həbs edildiyi andan etibarən vəkil və həkimlə görüşmək imkanı, habelə özlərinin saxlandıqları yer barədə hər hansı qohumuna və ya digər üçüncü şəxsə məlumat vermək imkanı yaradılmalıdır. Komissar qeyd etdi ki, Azərbaycan qanunverciliyində bu cür müdafiə tədbirləri nəzərdə tutulmuş ola bilər; lakin yenə də bu hüquqların səmərəli surətdə tətbiq edilməsi daha yaxşı təmin edilməlidir.

53. Verilən digər məlumata görə, Azərbaycanda məhkəmə tibb ekspertlərinin sayı çox azdır; buna görə də hər hansı şəxsin iddia etdiyi pis rəftardan yalnız bir neçə ay sonra və həmin rəftarın izləri yox olduqdan sonra tibbi müayinədən keçməsi halları mümkündür.

54. Nəhayət, Komissarın diqqətini bir çox xəstə məhbusların vəziyyəti cəlb etdi. Komissar hakimiyyət orqanlarını həbsdə olan istənilən şəxsə tam tibbi müalicə xidmətinin göstərilməsini, bütün hallarda həbs şəraitinin layiqli standartlara uyğun gəlməsini və lazım olduqda, məhbusların həbsxana hospitalına vaxtında köçürülməsini təmin etməyə çağırır.

## IV. Ədliyyə orqanlarının fəaliyyəti

### 1. İbtidai həbs

55. Komissar Kürdəxanıda yenicə inşa edilən, Ədliyyə Nazirliyinin tabeliyində olan və 2009-cu ilin yayında açılan məhkəməyə qədər saxlama yerinə səfər etdi.[18] Komissar bəzi kameralara, təcridxananın tibbi yardım mərkəzinə, mətbəxinə və kitabxanalarının birinə baxdı. Həbs müəssisəsi 500 məhbusu yerləşdirmək imkanına malikdir. Məhbuslar iki, dörd və altı nəfərlik kameralarda və ya mənzil tipli kameralarda saxlanırlar; hər kameranın kiçik balkonu və ya daxili baxçası vardır, yəni təmiz hava və gün işığı qəbul etmək imkanı vardır; lakin belə görünür ki, kifayət qədər geniş açıq sahələrdə gəzinti imkanı verilmir. Vəkillərlə məsləhətləşmələr aparmaq və ailə üzvləri ilə görüşmək üçün xüsusi otaqlar quraşdırılmışdır. Səfər əsnasında Komissar Kürdəxanıda yalnız kişi məhbusların saxlandığını gördü, lakin

[17] İşgəncəyə qarşı Komitənin yekun müşahidələri, Azərbaycan, CAT/C/AZE/CO/3, 8 dekabr 2009-cu il, 10-cu bənd.
[18] Bu müəssisənin adının Azərbaycan dilindən hərfi tərcüməsi "İstintaq təcridxanası"dır.

qadınlar üçün ayrıca əlavə tikilinin inşa edilməsi nəzərdə tutulmuşdu; 2010-cu ilin iyunundan isə yeniyetmə məhbusları qəbul etmək nəzərdə tutulmuşdu.

56. Kürdəxanıya etdiyi qısa səfər əsnasında Komissarda belə təəssürat yarandı ki, bu müəssisənin ümumi mühiti, göründüyü kimi, xeyli yaxşıdır, standartlar isə ümumilikdə qənaətbəxşdir. Lakin Komissar bədəni fiziki məşq elətdirə bilmək üçün kifayət qədər geniş olan sahədə məhbusların açıq havada fiziki məşğələlərə cəlb edilməsinin əhəmiyyətli olduğunu vurğulayır. Bundan əlavə, bəzi məhbuslar şikayət etdilər ki, qohumlarının göndərdikləri məktubları ala bilmirlər və telefon zəngi etmək imkanından məhrumdurlar. Avropa Həbsxana Qaydalarına uyğun olaraq, məhbusların məktub, telefon və ya digər rabitə növlərinin vasitəsilə öz ailələri, digər şəxslər və kənar təşkilatların nümayəndələri ilə əlaqə saxlamalarına, habelə həmin şəxslərlə həbsxanada görüşmələrinə imkan verilməlidir.[19] Komissar hakimiyyət orqanlarını məhbusların məktub və ya telefon vasitəsilə öz qohumları ilə əlaqə saxlamalarını heç bir şəkildə məhdudlaşdırmamağa çağırır.

57. Öz səfəri əsnasında Komissara həm də "təqsirləndirilən şəxslərə həbs qətimkan tədbirlərinin tətbiq edilməsi barədə təqdimatlara baxarkən məhkəmələrin qanunu tətbiq etmək üsulları" haqqında Azərbaycan Ali Məhkəməsi Plenumu tərəfindən 3 noyabr 2009-cu ildə qəbul edilən, bütün məhkəmələri ibtidai həbsdən fərqli olan üsullar tətbiq etmək barədə düşünməyə dəvət edən mühüm qərar barədə məlumat verildi. 2000-ci ildən bəri, Azərbaycanın Cinayət-Prosessual Məcəlləsi qəbul edildikdən sonra hər hansı cinayətdə şübhəli bilinən və ya təqsirləndirilən şəxs barədə ibtidai həbs tətbiq etmə səlahiyyəti Baş Prokurordan alınaraq, hakimlərə verilmişdir. Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq, cinayət təhqiqatlarının məhkəməyə qədərki mərhələsində həbs tədbiri yalnız məhkəmə tərəfindən, qanunla təsbit olunan və sərt şəkildə məhdudlaşdırılan hallarda, habelə məhkəmənin fikrincə, digər məhdudlaşdırıcı tədbirlər həqiqi vəziyyətə tam uyğun gəlmədiyi təqdirdə verilə bilər. Məcəllənin müvafiq müddəaları Avropa standartlarına uyğun gəldiyi halda, təcrübədə hakimlər ibtidai həbs tədbirini tətbiq etməyə əsas verən səbəbləri lazımi dərəcədə və ya tam nəzədən keçirmədən, yaxud ev dustaqlığı və ya girov əvəzində azad etmə kimi daha mülayim tədbirlərin kafi olub-olmayacağını nəzərə almadan, cinayət işlərinin böyük əksəriyyətində ibtidai həbs barədə order vermişdirlər. Ali Məhkəmə Plenumunun qərarı bu təcrübənin dəyişdirilməsinə yönəldilmişdir. Komissar ibtidai həbs tədbirinin həddindən artıq çox istifadə edilməsini aradan qaldırmaq məqsədilə görülən ilkin tədbirləri rəğbətlə qarşılayır.

## 2. Ədalətli məhkəmə araşdırması hüququ

58. Ədliyyə orqanlarının lazımi qaydada fəaliyyət göstərməsi və ədalətli mühakiməyə nail olmaq hüququ kimi məsələlər də Komissarın apardığı müzakirələr əsnasında qaldırıldı. Bu zaman belə bir fakt nəzərə alındı ki, Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycanda məhkəməyə müraciət etmək imkanının olmaması, tərəflərin bərabər hüquqlu olması qaydasına hörmət edilməməsi və ya müəyyən mülki və ya cinayət işlərinə həddindən artıq uzun müddətdə baxılması kimi hallarla əlaqədar olaraq, Konvensiyanın 6-cı maddəsinin dəfələrlə pozulduğu qənaətinə gəlmişdir. Bu cür qüsurların təkrar olunmasının qarşısını almaq üçün, ölkədaxili hüquqi müdafiə vasitələrinin təkmilləşdirilməsi barədə Nazirlər Komitəsinin üzv ölkələrə verdiyi Rec(2004)6 saylı Tövsiyəyə uyğun olaraq, əlavə islahatların həyata keçirilməsi nəzərdə tutulmalıdır, məsələn, məhkəmə işlərinə baxılmasının uzadılması barədə şikayət etməyin bir səmərəli üsulu təyin edilməlidir.

[19] Nazirlər Komitəsinin Avropa Həbsxana Qaydaları (bu hesabata əlavə edilmişdir) barədə üzv dövlətlərə verdiyi, 11 yanvar 2006-cı ildə qəbul etdiyi Rec(2006)2 saylı tövsiyənin 24-1 bəndi. 24-2 bəndinə uyğun olaraq, "Cinayət istintaqının davam etdirilməsi, yaxşı intizamın və təhlükəsizliyin təmin edilməsi, cinayət əməllərinin qarşısının alınması və cinayət qurbanlarının müdafiə olunması ilə əlaqədar olan tələbləri yerinə yetirmək üçün ünsiyyət və görüşlər lazım olan dərəcədə məhdudlaşdırıla və yoxlana bilər, lakin, buna baxmayaraq, təmasın ən aşağı məqbul həddi üçün imkan yaradılmalıdır."

59. Komissar hakimlərin, prokurorların və vəkillərin hazırlıq səviyyələrini yüksəltmək üçün Ədliyyə Akademiyasının təsis edilməsini rəğbətlə qarşılayır, lakin təəssüf edir ki, artıq özünün 2008-ci il hesabatında qeyd etdiyi kimi, Azərbaycanda ədliyyə orqanlarının icra hakimiyyətindən asılı olması və siyasi təzyiqə məruz qalması məsələsi hələ də həll olunmamışdır. Bəzi həmsöhbətlər qeyd etdilər ki, bəraət hökmlərinin sayı kifayət qədər azdır və məhkəmələr, bir qayda olaraq, prokurorların tələb etdikləri hökmləri verməyə meyl göstərirlər.

60. Azərbaycanın ədliyyə sisteminin fəaliyyətinə mane olan daha bir məsələ yerli məhkəmələrin qərarlarının icra edilməməsidir. Hazırda Avropa Şurasının Nazirlər Komitəsində dörd işə baxılmaqdadır: həmin işlər Konvensiyanın 6 §1 maddəsinin, bəzi hallarda isə həm də Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsinin (mülkiyyətin müdafiəsi) Azərbaycan tərəfindən pozulduğunu sübuta yetirən qərarlar Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən qəbul edildikdən sonra belə, yekun məhkəmə qərarları yerinə yetirilmədiyinə görə və ya bunların yerinə yetirilməsi gecikdirildiyinə görə, iddiaçıların ədalətli mühakiməyə nail olmaq hüququnun pozulması ilə əlaqədardır. Bu məsələ vətəndaşın qanunsuz şəkildə işdən azad edildikdən sonra işə bərpa olunması[20] və torpaq sahəsindən istifadə etmək hüququ[21], habelə Dağlıq Qarabağ bölgəsindən məcburi surətdə köçürülən şəxslərin zəbt etdikləri mənzilləri boşaltmaları barədə məhkəmə qərarlarının yerinə yetirilməməsi və ya yerinə yetirilməsinin gecikdirilməsi ilə əlaqədardır.[22]

61. Komissar hakimiyyət orqanlarını yekun məhkəmə qərarlarının ağlabatan vaxt ərzində icra edilməsini təmin etməyə və yerli məhkəmələrin qərarlarının icra edilməsinin gecikdirildiyi təqdirdə iddiaçıların şikayət verə və kompensasiya ala bilmələri üçün mövcud olan səmərəli hüquqi müdafiə vasitələri barədə məlumat verməyə dəvət edir.

## V. Naxçıvan Muxtar Respublikasına səfərlə bağlı müşahidələr

### 1. Ümumi qeydlər

62. Naxçıvan Muxtar Respublikasına səfər Komissarın ilk səfəri idi və Naxçıvan hakimiyyət orqanalrı ilə insan hüquqları məsələləri barədə dialoqun başlanması üçün imkan yaratmış oldu.

63. Azərbaycan Respublikası daxilində Naxçıvanın muxtariyyətinin əsasları hazırda qüvvədə olan 1921-ci il tarixli Moskva və Qars beynəlxalq müqavilələri ilə qoyulmuşdur.. Əhalisi 398.000 nəfərdir. O, Azərbaycanın əsas hissəsindən ayrı, Ermənistan, İran və Türkiyə ilə sərhəddə yerləşir. Venesiya Komissiyasının[23] rəyinə əsasən 1998-ci ildə Ali Məclis tərəfindən özünün qəbul edilmiş Konstitusiyası vardır. Naxçıvan Muxtar Respublikasının ərazisində həm Azərbaycan milli qanunu həm də Muxtar Respublikanın öz qanunu tətbiq olunur. Muxtar Respublikanın səlahiyyətləri bütovlükdə Azərbaycan Respublikasının Konstitusiyası [24] tərəfindən təyin edilməsinə baxmayaraq, nisbətən mühüm sahələr Naxçıvan Ali Məclisinin müstəsna səlahiyyətindədir. Naxçıvanda Ombudsman haqqında Qanun Ali Məclis tərəfindən

---

[20] Tarıverdiyev Azərbaycana qarşı, Ərizə 33343/03, 26/07/2007-ci il tarixli qərar, və Əfəndiyeva Azərbaycana qarşı, Ərizə 31556/03, 25/10/2007-ci il tarixli qərar.
[21] Hümbətov Azərbaycana qarşı, Ərizə 13652/06, 03/12/2009-cu il tarixli qərar.
[22] Mirzəyev Azərbaycana qarşı, Ərizə 50187/06, 03/12/2009-cu il tarixli qərar. Məhkəmə bu yaxınlarda bu məsələ barədə daha üç qərar qəbul edib: Cəfərov Azərbaycana qarşı, Ərizə 17276/07, 11/02/2010-cu il tarixli qərar; Gülməmmədova Azərbaycana qarşı, Ərizə 38798/07, 22 aprel 2010-cu il tarixli qərar, və Həsənov Azərbaycana qarşı, Ərizə 50757/07, 22 aprel 2010-cu il tarixli qərar. Həm də buna bənzər işlə tanış olun: Akimova Azərbaycana qarşı, Ərizə 19853/03, 27/09/2007-ci il tarixli qərar.
[23] CDL-INF(1997)006, Naxçıvan Muxtar Respublikasının (Azərbaycan Respublikası) Konstitusiya layihəsi barədə rəy, 18 dekabr, 1997-ci il.
[24] Bax: Konstitusiyanın 8-ci fəsli

qəbul edildikdən sonra, 2006-cı ildə Ombudsman İnstitutu təsis edildi. Bu qanun Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsaslanır.

64. Naxçıvanda jurnalistlərə hücum, insan hüquqları müdafiəçilərinin[25] təqib olunması və həbsi kimi hüquq pozuntuları da daxil olmaqla, insan hüquqlarının pozulması barədə bir neçə məlumatlar daxil olmuşdur. Özünəməxsus coğrafi şəraitə malik olduğuna görə təhlükəsizlik və inkişaf məsələlərinə daha çox üstünlük verilirməsini qeyd edən Ali Məclisin sədri bildirdi ki, beynəlxalq təşkilatlarla birgə insan hüquqları vəziyyətinin yaxşılaşdırmaq məqsədi ilə bir neçə layihələr həyata keçirilmişdir. Ali Məclis sədrinin sözlərinə görə Naxçıvanda təxminən 40 QHT qeydə alınmışdır və sərbəst fəaliyyət göstərir. Komissar Naxçıvan hakimiyyət orqanlarını pluralist demokratiyanın əsas elementlərindən olan vətəndaş cəmiyyətinin azad fəaliyyətinə qarşı maneələrin aradan qaldırmağa çağırır.

**2. Psixiatriya xəstəxanası**

65. Azərbaycanda ruhi xəstələrə qayğı 2001-ci ildə qəbul edilmiş Psixiatriya Yardımı haqqında (PYQ) Qanun vasitəsilə tənzimlənir. Bu Qanun ruhi xəstəlikdən əziyyət çəkən şəxsləri bir sıra hüquqlarla təmin edir və onların stasionara məcburi yerləşdirilməsi üçün prosedur və müalicəyə razılıq məsələlərini tənzimləyir.

66. Naxçıvanda yerləşən və 4 ayrı bölmələrdən ibarət olan psixiatriya xəstəxanası Komissara göstərildi: onlardan 2-si (biri kişilər, biri də qadınlar üçün) ruhi çatışmazlığdan əziyyət çəkənlər üçün qapalı tipli, biri narkomanlar üçün bağlı tipli və biri də ambulator xəstələr üçün açıq tiplidir. Psixiatriya xəstəxanası 1962-ci ildə inşa olunmuşdur və ilk əvvəl 30-40 nəfər xəstə üçün nəzərdə tutulmuş, sonradan bunun sayı 50 nəfərə çatdırılmışdır. 110-120 nəfərlik yeni binanın inşasına başlanılmışdır. Səfər günü, xəstəxanada daha çox yer və avadanlıqla təmin etməkdən ötrü bərpa işləri aparılırdı və bu işlər 1 ay ərzində bitməli idi. Ümumilikdə xəstəxananın vəziyyəti təmiri və təmizliyi cəhətdən qənaətbəxş idi.

67. Baxış zamanı xəstəxanada 3 həkim-psixiatrın nəzarəti altında 76 xəstə müalicə olunurdu. Komissara çarpayı və stullardan ibarət adi avadanlığı olan 4-8 nəfərlik bir neçə palata göstərildi. Ehtiyac olduqda, xəstələrin izolyasiyası üçün nəzərdə tutulan iki boş otaq da mövcuddur. Xəstələr televisor və stolları olan otaqlara gedə bilirlər, əks təqdirdə vaxtlarını öz otaqlarında keçirirlər. Komissar xəstələrlə müalicəvi tədbirləri həm içəridə, həm də açıq sahələrdə keçirilməsini məsləhət gördü.

68. Komissar ilə müzakirə zamanı direktor bildirdi ki, bütün xəstələr rəsmi olaraq “könüllü” hesab olunurlar və onların bu haqda yazılı razılıqları var. O, həmçinin vurğuladı ki, hər hansı bir şəxsə münasibətdə psixiatriya xəstəxanasına yerləşdirmək haqqında yazılı ərizə qəbul olunduqda, PYQ-ya əsasən məcburi yerləşmə yalnız 3 şərt əsasında mümkün olacaqdır: 1) əgər şəxs özü-özünün qayğısına qala bilmirsə, yaxud da müalicə edilmədiyi halda vəziyyəti pisləşərsə; 2) 3 həkim–psixiatr tərəfindən müayinə aparılmalıdır; onlardan biri xəstəxananın həkimi olmalıdır ki, o, faktın təsdiqlənməsi anından etibarən 48 saat ərzində xəstəxanaya yerləşdirilməyə ehtiyacın olub-olmaması, yaxud da xəstənin evə buraxılması barədə rəy versin və yaxud səlahiyyətli məhkəmədən xəstənin xəstəxanaya yerləşdirilməsi barədə rəy alsın; 3) nəhayət, xəstənin stasionara yerləşdirilməsi üçün məhkəmə hüquqi qərar çıxartmalıdır, bu qərar xəstənin sonradan yüksək məhkəmə orqanlarına müraciət etməsinə məhdudiyyət qoymur. PYQ həmçinin şərt qoyur ki, xəstələrin xəstəxanaya məcburi yerləşdirilməsi onların səhhətlərinin yaxşılaşdırılması zərurətindən irəli gəlməlidir.

69. Bəzi hallarda psixiatriya rəyi müstəntiq, prokuror və ya məhkəmə tərəfindən hər hansı bir şəxsin cinayət məsuliyyətinə cəlb olunmasını müəyyənləşdirmək üçün tələb oluna bilər. Bu

[25] Bax: Norveç Helsinki Komitəsinin hesabatı, “Azərbaycanın qara adası: Naxçıvanda insan hüquqları pozuntuları”, 2009-cu il.

rəy həmin şəxsin psixiatriya xəstəxanasında müalicə alması və yaxud həbsxanaya göndərilməsi barədə qərar çıxardan həkim-psixiatriya komissiyası tərəfindən verilir və əsasən, Bakının yaxınlığındakı 1 saylı psixiatriya xəstəxanasının 1-ci mərtəbəsində yerləşən məhkəmə tibbi ekspertiza mərkəzində keçirilir, İQAK[26] bura 2002-ci ildə gəlmişdir.

70. Naxçıvan Muxtar Respublikasında ruhi çatışmazlığa dair dəyərləndirmə olmadan şəxslərin psixiatriya xəstəxanasına məcburi yerləşdirməsi ilə bağlı iddiaların olduğu nəzərə alaraq, 2008-ci ildə Azərbaycana gəlişi zamanı etdiyi İQAK[27] tövsiyələrini Komissar bir daha təkrar edərək deyir ki, stasionara məcburi yerləşdirilməyə dair PYQ normalarının təminatına tam əmin olmaq üçün addımlar atılmalıdır. Xüsusilə də, Komissar xatırladır ki, psixiatriya müəsissələrinə məcburi yerləşdirilmə həmişə məhkəmənin qərarı ilə və tibbi rəy əsasında olmalıdır.

### 3. Bənənyar kəndindəki son hadisələr

71. Culfa rayonunda yerləşən və 3500 əhalisi olan Bənənyar kəndi Naxçıvan Muxtar Respublikasının ən böyük kəndlərindən biridir. 2009-cu il dekabr ayının 28-i və 29-da dini mərasim sayılan Aşura zamanı polis və kəndlilər arasında toqquşma baş vermiş və polis bir neçə kəndlini həbs etmişdi. Vətəndaş cəmiyyətinin nümayəndələr iddia edirlər ki, polis Bənənyar kəndinin bir neçə sakinini tutub saxlamışdır və bu şəxslər qonşu kənddəki polis bölməsinə aparılmış və sorğu-suala və pis rəftara məruz qalmışlar. Daha sonra vətəndaş cəmiyyətinin nümayəndələri iddia etdilər ki, 2010-cu il yanvar ayının 5-də bir neçə yüz polis əməkdaşı, xüsusi qüvvələr daxil olmaqla, kəndə daxil olub onlarla kəndlini həbs etmişlər. 2010-cu il yanvar ayının 13-də Bakıda olan 2 diplomat baş verən hadisə barəsində məlumat toplamaq üçün Bənənyar kəndinə getməyə cəhd göstərmişlər, lakin 50-60 nəfərdən ibarət kütlə onların kəndə girmələrinə mane olmuşdur. Məlumata görə kütlə diplomatları hədələmiş və təhqir etmişdir. Nəticədə Azərbaycan Xarici İşlər Nazirliyi diplomatların Bənənyar kəndinə getməsindən narazı olduğunu və onların bu hərəkətinin Diplomatik Əlaqələr barəsində 1961-ci il Vyana Konvensiyası ilə uzlaşmadığını bildirmişdir.

72. 2010-cu il mart ayının 3-də Komissar Bənənyar kəndinə gəldi. Gəlişin məqsədi bu yaxınlarda baş verən hadisəni kənddə müzakirə etmək idi. Komissar kəndin icra hakimiyyətinin başçısı Şahbaz Əsgərovla, həmçinin, yerli məscidin mollası Əli Əsgərovla görüşdü. Onlar təsdiq etdilər ki, həqiqətən toqquşma baş vermişdir və polis Aşura dini mərasimi keçirildiyinə görə müdaxilə etməli olmuşdur, lakin kənddə iğtişaş olduğunu, kiminsə həbs olunduğunu və yaxud da kiməsə qarşı pis rəftar edildiyini inkar etdilər. Onların fikrincə, polisin müdaxilə etməkdə məqsədi mərasimdə iştirak edən insanların özlərini zəncir və ya iti bıçaqla zədələmələrinin qarşısını almaq olmuşdur. Hadisə zamanı müsadirə edilən qırmanc Komissara göstərildi. İcra başçısı vurğuladı ki, son illərdə kənddə 200 belə əşya müsadirə olunmuşdur. O, hesab edir ki, polisin müdaxiləsi labüd idi, çünki ən azından 1000 nəfər sakin mərasimdə iştirak edirdi.

73. Həmçinin məlumat verilmişdir ki, 2009-cu il dekabr ayının 28-də gənc kənd sakini özünü odlamış və Naxçıvan şəhərindəki xəstəxanaya çatdırılmış və sonra tibbi müalicə almaq üçün İrana aparılmışdı. Naxçıvanın hakimiyyət orqanların bəyanatına əsasən, ruhi xəstə olan bu şəxs, spirtli içki düşkünü idi[28] və qeyri-qanuni hərəkətlər edirdi; sonda da o, üstünə benzin tökərək özünü öldürməyə cəhd etdi. Hakimiyyət orqanları onu da dedilər ki, həmin şəxs artıq sağalmış və kəndə qayıtmışdır.

---

[26] Bax: CPT/Inf (2004)36, İşgəncənin, Qeyri-insani və ya Alçaldıcı Rəftarın və ya Cəzanın Qarşısının alınması üzrə Avropa Komitəsinin (İQAK), Azərbaycana səfəri haqqında Azərbaycan Hökumətinə yazdığı hesabat, 24 noyabr -6 dekabr, 2002-ci il.

[27] CPT/Inf (2009)28, İşgəncənin, Qeyri-insani və ya Alçaldıcı Rəftarın və ya Cəzanın Qarşısının alınması üzrə Avropa Komitəsinin (İQAK), Azərbaycana səfəri haqqında Azərbaycan Hökumətinə yazdığı hesabat, 8 - 6 dekabr, 2002-ci il.

[28] Məlumat Azərbaycan Mətbuat Agentliyi APA tərəfindən verilmişdir, 8 yanvar 2010-cu il: http://en.apa.az/news.php?id=113604.

74. Bundan başqa məlumat verilmişdir ki, 4 nəfər polis zorakılığı nəticəsində həlak olmuşdur. Hakimiyyət orqanları, Bənənyar kəndində doğulmuş 4 nəfərin həqiqətən də 2010-cu ilin yanvar və fevral aylarında vəfat etdiklərini təsdiqləyərək, bunların yuxarıda qeyd edilən mərasimlə və polis əməkdaşlarının müdaxiləsi ilə heç bir əlaqəsi olmadığını bildirdilər; onların sözünə görə, həmin şəxslərdən biri bu hadisələr vaxtı heç Azərbaycanda deyildi. Hakimiyyət orqanları bəzi qəzetlərin və QHT-lərin, onların dedikləri kimi "yanlış kampaniya" aparmasını tənqid etdilər. Lakin Bakıda Ombudsman qeyd etdi ki, onun idarəsi bu hadisələrlə əlaqədar kənd sakinlərinin Bakıda yaşayan qohumlarından bir neçə şikayət məktubu almışdır və o, bu işi araşdırmaqda öz qətiyyətliyini ifadə etdi.

75. Komissarın 2009-cu ilin dekabr və 2010-cu ilin yanvar aylarında Bənənyar kəndində baş vermiş hadisə ilə əlaqədar aldığı məlumatlar ziddiyyətlidir. Şübhəsiz ki, toqquşma və polis müdaxiləsi olmuşdur. Müxtəlif versiyalarla əlaqədar bir sıra suallar ortaya çıxır ki, hələ onlara cavab verilməmişdir. Aydındır ki, zorakılıq və pis rəftar edilməsinə dair bütün məlumatlar müstəqil və qərəzsiz təhqiqatçılar tərəfindən yoxlanılmalıdır.

## VI. Nəticə və tövsiyələr

### *Ümumi məlumat*

76. Azərbaycan, Avropa İnsan Hüquqları Konvensiyasının 12 və 13 saylı Protokolları istisna olmaqla, əsas insan hüquqları sazişlərini ratifikasiya etmişdir. Komissar, artıq Azərbaycan tərəfindən imzalanmış ümumi ayrı-seçkiliyin qadağalarından ibarət olan 12 saylı Protokolun ratifikasiyasını, həmçinin bütün hallarda ölüm cəzasının ləğvinə aid 13 saylı Protokolun imzalanması və ratifikasiya olunmasını tövsiyə edir. Komissar həmçinin Avropa Sosial Xartiyası çərçivəsində kollektiv şikayət prosedurun qəbul edilməsini tövsiyə edir.

77. Baxmayaraq ki, Kommissarın sonuncu hesabatında toxunulan məsələləri həll etmək üçün Avropa İnsan Hüquqları Konvensiyasının implementasiyası məqsədilə seminarlar və təlim-tədris kurslarının təşkilinə qüvvə sərf edilmişdir, bir çox sahələrdə vəziyyət hələ də qənaətbəxş deyildir. Komissar vurğulamaq istəyir ki, mütərəqqi qanunların qəbul edilməsi habelə insan hüquqlarının pozulması hallarının araşdırılacağı barədə mesajların verilməsi vacib addımlardır; lakin bütün bunlar kifayət deyil. Əvəzində fundamental azadlıq və digər razılaşdırılmış standartlar vasitəsilə dəqiq və qətiyyətli hərəkətlər təcrübədə nümayiş etdirilməlidir.

78. Komissar hakimiyyət orqanlarını aşağıdakı tövsiyyələrin həyata keçirilməsinə dərhal diqqət yetirməyə çağırır.

### *İfadə azadlığı*

79. İnsan hüquqlarını və qanunun aliliyini dəyərləndirən bir cəmiyyətdə tənqidi fikirlər irəli sürən jurnalistlərə və ya başqalarına qarşı təqibə yer yoxdur. Komissar Azərbaycanın hakimiyyət orqanlarını jurnalistlərə qarşı irəli sürülən ədalətsiz cinayət ittihamlarına və onların həbs edilməsinə son qoymağa çağırır və Parlamenti diffamasiyaya görə cinayyət məsuliyyətinin ləğv edilməsi məqsədi ilə beynəlxalq standartlara, xüsusilə də, Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə uyğun olan qanunu qəbul etməyə çağırır. Bu mənada Komissar Azərbaycanda diffamasiyaya görə cinayyət məsuliyyətinin ləğv edilməsi barəsində ictimai müzakirənin aparılmasını alqışlayır.

80. Komissar, həmçinin, məhkəmələri Konvensiyanın 10-cu maddəsinə və Avropa İnsan Hüquqları Məhkəməsinin hüquq təcrübəsinə əsasən qərar çıxarmağa dəvət edir və hakimlərə Cinayət Məcəlləsində diffamasiyaya aid maddələrə əsaslanaraq jurnalistlərə hökm çıxarmaqdan çəkinməyi tövsiyə edir.

81. Hakimiyyət orqanları ifadə etdikləri fikirlərə görə həbsdə saxlanılan bütün jurnalistləri və digər şəxsləri dərhal azadlığa buraxmalıdırlar. Komissar xüsusilə də Eynulla Fətullayev, Emin (Milli) Abdullayev və Adnan Hacızadənin dərhal azad olunmasında israr edir.

82. Komissar hakimiyyət orqanlarını Məlumat azadlığı haqqında Qanunu yerinə yetirməyə, xüsusilə də ictimaiyyət və yerli hakimiyyət orqanları arasında məlumat azadlığı haqqında məlumatın artırılmasına, məlumat strategiyasını və fəaliyyət planını qurmağa, maddı-texniki bazasının yaxşılaşdırmasına və əgər məlumat almaq xahişi ədalətsiz olaraq rədd edilmişdirsə, sanksiyaların tətbiq edilməsinə dəvət edir. Komissar, 2005-ci ildə qəbul edilmiş Qanunda əks olunduğu kimi, məlumat hüququ almaq üzrə Ombudsmanın təyin edilməsi tövsiyyəsini təkrar edir.

83. Komissar, Konstitusiyada və qanunvercilikdə edilən son dəyişikliklərin Konvensiyanın 10-cu maddəsinə zidd şəkildə tətbiq edilə biləcəyini nəzərə alaraq, KİV-in işinə əngəl törədilməsinin qarşısını almaq məqsədi ilə bu müddəaların ləğv edilməsini tövsiyə edir.

84. Komissar hakimiyyət orqanlarını jurnalistlərə qarşı edilən hədə-qorxunun, yaxud zorakılığın cinayət olub-olmamasına əmin olmağa və cinayətkarın cəzalandırılması məqsədilə səmərəli və müstəqil təhqiqat aparmağa çağırır.

85. Komissar Mətbuat Şurasını "şantajla məşğul olan qəzetlərin qara siyahısı" təcrübəsindən əl çəkməyə dəvət edir.

86. Demokratik cəmiyyətin fəaliyyət göstərməsi üçün media rəngarəngliyinin vacibliyini qeyd edərək, Komissar hesab edir ki, BBC, Azadlıq/Azad Avropa radiosu, Amerikanın Səsi və Avropa Plyus radio stansiyalarının FM dalğalarında yenidən səslənməsinə icazə verilməlidir.

87. Nəhayət, bu ilki parlament seçkilərinə dair azad fikir söyləmək və məlumatı yaymaq imkanının olması vacibdir.

***Birləşmək azadlığı***

88. Komissar hakimiyyət orqanlarını Azərbaycanda fəaliyyət göstərmək istəyən QHT-lər qarşısında maneələr yaratmamağa çağırır. QHT-lərin qeydiyyatına gəldikdə, Komissar Ədliyyə Nazirliyini qeydiyyatla bağlı bütün xahişlərə ədalətli baxılmasına və qanunda qeyd olunmuş müddət ərzində onlara cavab verməyə çağırır. Komissar həmçinin məsləhət görür ki, dini qurumları yenidən qeydiyyatdan keçirmək də daxil olmaqla, qeydiyyata alma tələbləri və prosedurları sadələşdirilməlidir.

***Hüquq-mühafizə orqanları əməkdaşlarının davranışı***

89. Hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən həddən artıq güc tətbiq edilməsinə yol verməmək üçün bu hesabatda göstərilən çatışmazlıqların aradan qaldırımaq lazımdır. Komissar hakimiyyət orqanlarını tutulan şəxslərə işgəncə verilməsi və onlarla pis rəftar olunması barədə olan məlumatları müstəqil və əsaslı araşdırmağa tələsdirir. Pis rəftar halları iddia olunduqda hakimiyyət orqanları müstəqil və etibarlı məhkəmə ekspertizasını təmin etməlidirlər.

90. Azadlıqdan məhrum edilən şəxslərə gəldikdə, İşgəncənin, Qeyri-insani və ya Alçaldıcı Rəftarın və ya Cəzanın Qarşısının alınması üzrə Avropa Komitəsinin (İQAK) hesabatlarında pis rəftarın qarşısını almaq və həbs müddətində mühafizə tədbirləri barədə tövsiyələr təklif edir; bu tövsiyələr şübhəli bilinən və ya təqsirləndirilən şəxslər haqqında qanun layihəsinin cari müzakirəsində Parlament tərəfindən nəzərə alınmalıdır. Ona görə də, Komissar hakimiyyət orqanlarına bütün İQAK hesabatlarının nəşr olunmasını və onların əlaqədar

tərəflər arasında yayılmasını təklif edir. 5 hesabatdan yalnız ikisi bu günə qədər nəşr olunmuşdur.

91. Komissar İQAK-ın tövsiyələrini təkrarlayaraq deyir ki, hakimiyyət orqanları azadlıqdan məhrum edilmiş şəxsə fiziki cəza verilməsi və şifahi təhqirlər edilməsinin qəbulolunmaz olduğu və bu cür hallara qarşı ciddi tədbirlər görüləcəyi barədə hüquq-mühafizə orqanları əməkdaşlarına aydın xəbərdarlıq etməlidirlər.

***Ədliyyə Orqanlarının fəaliyyəti***

92. Komissar Nazirlər Komitəsinin Rec (2006)13 saylı Tövsiyəsinə uyğun olaraq, həbs qətimkan tədbirinə alternativ olan vasitələrdən mümkün olduqca çox istifadə etməyə çağırır.

93. Konvensiyanın 6-cı maddəsinə əsasən ədalətli məhkəmə araşdırması hüququna hörmət olunmalıdır. Xüsusilə də Komissar hakimiyyət orqanlarını bütün işlərə ədalətli baxılması, həmçinin tərəflərin bərabər hüquqlu olması qaydasına hörmət edilməsi barədə təcili ölçü götürülməsinə çağırır.

***Naxçıvan Muxtar Respublikasına səfərlə bağlı müşahidələr***

94. Komissar hakimiyyət orqanlarını tibbi rəy olmadan heç bir kəsin məcburən psixiatriya xəstəxanalarına yerləşdirilməsinə imkan verməməyə çağırır. Psixiatriya müəssisələrində olan şəraitə nəzarət etmək üçün müstəqil idarənin yaradılması Psixiatriya Yardımı haqqında Qanunun lazımi şəkildə yerinə yetirilməsinə zəmanət verə bilər.

95. Bənənyar kəndində baş verən hadisələrlə əlaqədar Komissar xatırladır ki, pis rəftarla bağlı hər hansı məlumatın təhqiqatı Avropa İnsan Hüquqları Məhkəməsinin səmərəli təhqiqat aparılması ilə bağlı standartlarına uyğun olaraq həyata keçirilməlidir.

96. Nəhayət, Komissar vurğulamaq istəyir ki, o, Azərbaycandakı, o cümlədən Naxçıvan Muxtar Respublikasındakı vəziyyəti diqqətlə izləməkdə davam edəcək və insan hüquqlarının qorunması ilə bağlı Avropa Şurasının standartlarının səmərəli yerinə yetirilməsinə yardım məqsədilə Avropa Şurasının müstəqil və bitərəf orqanı kimi öz köməyini göstərəcəkdir. Komissar hazırkı hesabatda edilən tövsiyələr fonunda vəziyyəti daha da yaxşılaşdırmaqda Azərbaycanın hakimiyyət orqanlarına yardım etmək üzrə özünün açıq və konstruktiv dialoqunu davam etdirməyə hazır olduğunu bildirir.

## Qoşma

## 1-5 Mart 2010-cu il tarixlərində Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarının Azərbaycana səfəri barədə hesabat haqqında Azərbaycan hökumətinin şərhləri

### Ümumi

Azərbaycan Hökuməti İnsan Hüquqları üzrə Komissar Cənab Tomas Hammarberqin bu il martın 1-5-də Azərbaycana səfəri zamanı gördüyü işi və bu hesabatı hazırlamasını qiymətləndirir və Komissara müşahidələrinə və məsləhətlərinə görə təşəkkür edir. Bir daha vürğulamaq düzgün olardı ki, Komissarın Ofisi ilə əməkdaşlıq etmək Azərbaycan üçün mühüm önəm kəsb edir və Azərbaycan hökuməti bu əməkdaşlığı davam etdirmək arzusunda olduğunu və buna hazır olduğunu bildirir.
Eyni zamanda, Azərbaycan hökuməti Hesabatda toxunulan bir neçə mühüm aspektlərə aid aşağıdakı şərhlərini və müşahidələrini etmək istərdi. Əminik ki, onlar müəyyən məsələlərə aydınlıq gətirməkdə kömək edəcək və lazımi qaydada nəzərə alınacaqdır.

### Fəsil 1. İfadə azadlığı

### 1. Diffamasiya

**9-cu bənddə** qaldırılmış diffamasiyaya görə cinayət məsuliyyətinin ləğv edilməsi məsələsinə gəlincə, xüsusi qeyd etmək lazımdır ki, son illər Azərbaycan Respublikası Cinayət Məcəlləsindən böhtan və təhqirə görə məsuliyyət nəzərdə tutan 147 və 148-ci maddələrin çıxarılması və "Diffamasiya haqqında" qanunun qəbul edilməsi ilə bağlı geniş ictimai müzakirələr təşkil olunmuş, beynəlxalq təşkilatlarla, o cümlədən ATƏT-in Media ofisi ilə əməkdaşlıq həyata keçirilmişdir. Əlavə olaraq deməliyik ki, Azərbaycanın Mətbuat Şurası 2010-cu ili “Azərbaycanda diffamasiya ili” elan etmişdir. Buna baxmayaraq müzakirələr göstərmişdir ki, medianın iqdisadi vəziyyətinin qeyri-qənaətbəxş və jurnalistlərin peşəkarlığının aşağı olduğu bir vaxtda, diffamasiyaya görə cinayət məsuliyyətinin ləğv edilməsi və “Diffamasiya haqqında Qanun”un qəbul edilməsi iddia edildiyi kimi bu sahədə mövcud problemlərin aradan qaldırılmasına xidmət etməyəcək, əksinə vəziyyəti daha da kəskinləşdirəcəkdir. Nəzərə alınmalıdır ki, ifadə azadlığı böhtan və ya təhqir azadlığı kimi başa düşülməməli və bu azadlıq digərlərinin hüquq və azadlıqlarını pozmamalıdır. Beləliklə, inanırıq ki, “Azərbaycanda Kütləvi İnformasiya Vasitələrinin (KİV) inkişafına dövlət dəstəyi” Konsepsiyasında qeyd edilən öhdəliklərin yerinə yetirilməsi irəli getməyə kömək edəcəkdir. Bu, kütləvi informasiya vasitələrinin iqtisadi müstəqilliyinin güclənməsinə, jurnalistlərin peşəkarlığının artmasına, jurnalist etikasının təmin edilməsinə, həmçinin bu sahədəki digər mövcud problemlərin aradan qaldırılmasına və diffamasiya haqqında qanunun sonradan qəbul edilməsi üçün şəraitin yaradılmasına öz töhfəsini verəcəkdir.

Həm də bu fakt da nəzərə alınmalıdır ki, inkişaf etmiş Avropa dövlətləri də daxil olmaqla bir sıra ölkələrin qanunvericiliyində diffamasiyaya görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Azərbaycan inanır ki, bərabər yanaşma Avropa Şurasının bütün üzv dövlətlərinə şamil edilməlidir. Bununla yanaşı, Azərbaycanın dövlət strukturlarına yüksək hakimiyyət orqanları tərəfindən onların tənqidə qarşı daha dözümlü olmaları və jurnalistləri məhkəməyə verməkdən daşınmaları barədə xəbərdarlıq edilmişdir və ötən bir neçə il ərzində jurnalistlərin cinayətə cəlb edilməsi halları xeyli azalmışdır. (bax: aşağı). Çoxsaylı informasiya vasitələri və jurnalistlər Azərbaycanda həqiqətən də azad fəaliyyət göstərirlər və lazım gəldikdə, heç bir məhdudiyyət və maneə olmadan tənqiddən istifadə edirlər.

KİV-lərin inkişaf etdirilməsi və mövcud problemlərin aradan qaldırılması istiqamətində dövlətin həyata keçirdiyi tədbirlərin nəzərə alınmaması, yalnız neqativ halların qabardılması və onların siyasiləşdirilməsinə cəhd, bəzi faktların düzgün şərh edilməməsi hesabatın obyektivliyinə mənfi təsir göstərən amillərdir. Məsələn, son illərdə qanunvericiliyin təkmilləşdirilməsi və onları

beynəlxalq standartlara yaxınlaşdırmaq, medianın davamlılığını və iqtisadi müstəqilliyini gücləndirmək, həmçinin jurnalistlərin peşəkarlığını artırmaq üçün edilən səylər hesabatda qeyd olunmur. Vətəndaş cəmiyyətindən alınan məlumata əsaslanaraq 9-cu bənddə iddia olunur ki, "jurnalistləri saxlanılması və onların məhkəməyə verilməsi faktları artmışdır". Halbuki mənbədən alınan və haşiyədə qeyd olunan məlumata istinad etsək belə işlərin sayının 2009-cu ildə (32) 2007 (103) və 2008-ci illərlə (63) müqayisədə həqiqətən azalmış olduğunu görərik. Beləliklə, son 4 ilin statistikası göstərir ki, bu kateqoriyadan olan işlərin çoxu qəbul edilməmiş və nadir hallarda həbsəalma hökmü çıxarılmışdır.

Daha sonra, qeyd etməliyik ki, 2009-cu ildə jurnalistlər tərəfindən təhqir edilmiş və şantaj olunmuş, haqqında yalan məlumatlar yayılmış vətəndaşlar hüquqlarını müdafiə etmək üçün məhkəmələrə müraciət etmiş, il ərzində qəzetlərə qarşı 32 iddia qaldırmışlar. Jurnalistlərin cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı iddiaların əksəriyyəti məhkəmələr tərəfindən qəbul edilməmişdir. Müstəqil təşkilatların hesablamalarına görə, iddiaçılar mənəvi zərərin ödənilməsi ilə bağlı qəzetlərdən və jurnalistlərdən 3 milyon manata yaxın təzminat tələb etmişlər. Lakin məhkəmələr il ərzində cəmi 20 min manata yaxın məbləğin təzminat kimi ödənilməsini təmin etmişlər. Təhqir, yalan, şantaj, işgüzar nüfuza xələl gətirilməsi və qanunla qadağan olunmuş digər hallar təsdiqini tapdıqda, məhkəmələr əsasən təkzib verilməsi və iddiaçıdan üzr istənilməsi ilə bağlı qərarlar çıxarmışlar.

**10-cu bənddə** E. Fətullayevin yeni cinayət işinin "etimad doğurmadığı" barədə edilən iradlara gəlincə, qeyd etmək lazımdır ki, hazırda məhkəmə araşdırmaları aparılır və məhkəmə araşdırması başa çatmamışdan öncə bu işlə bağlı fikir yürüdülməsi tələsik atılan addımdır. Ona görə də, bu bəyanat əsassızdır. Bundan başqa bizim fikrimizcə 10-12-ci paraqraflar müəyyən mənada Eynulla Fətullayevin məsələsinə toxunaraq təkrarlanır və ona görə də onları qısa və yığcam vermək olardı.

**12-ci bənddə** deyilir ki, Avropa İnsan Hüquqları Məhkəməsi 2010-cu il 22 aprel tarixində *Fətullayevin Azərbaycana qarşı* işi barəsində hökm çıxarmışdır. Bu hökm tərəflərin Məhkəmənin Böyük Palatasına müraciət etmədiyi halda 2010-cu il 22 iyul tarixində yekun olacaqdır.

**14-cü bənddə** qeyd olunur ki, "Femida 007" qəzetinin baş redaktoru Eyyub Kərimov 18 ay müddətinə azadlıqdan məhrum edilmişdir. Halbuki, o, hesabatda qeyd olunan kimi, islah işləri cəzasından başqa heç bir cəza almamışdır. Ona cərimə də kəsilməmişdir, belə ki, bu işə tətbiq olunan Cinayət Məcəlləsinin 147.2 maddəsinə əsasən bu cür cərimə nəzərdə tutulmur.

**2. Jurnalistlərə və hüquq müdafiəçilərinə qarşı zorakılıq, təqib və hədələmə halları**

2005-ci ilin mart ayında Elmar Hüseynovun ölümünün araşdırılmasına (22-ci bənd) gəlincə, qeyd etməliyik ki, bu işin istintaqı aşkar etdi ki, Gürcüstan vətəndaşları Tahir Xubanov və Teymuraz Əliyev bu cinayətin törədilməsində iştirak etmişlər. Bu iki şübhəli şəxsə qarşı Beynəlxalq axtarış 2005-ci ilin may ayında İnterpol tərəfindən çıxarılmışdır.

Azərbaycan tərəfi T. Xubanovun və T.Əliyevin Azərbaycana verilməsi barədə Gürcüstan Prokurorluğuna sorğu verərək ondan qanuni kömək etməsini xahiş etdi. Azərbaycanın müvafiq orqanları tərəfindən altı dəfə rəsmi sorğu aldıqlarına baxmayaraq Gürcüstan tərəfi bu sorğulara hələ də cavab verməyib. İstintaq qrupu bu məsələ ilə əlaqədar bir neçə dəfə Gürcüstana səfər etmişdir. Təhqiqatçılar bu cinayəti törətməkdə istifadə olunan silahın mənşəyini və sahibini müəyyənləşdirmək üçün Rusiyaya və Bolqarıstana da getmişlər. İstintaq prosesində təxminən 160 axtarış və araşdırmalar aparılmış, 600 nəfərdən çox şahid dindirilmişdir. Bu, Azərbaycan rəsmi orqanlarının bu işin təhqiqatına verdiyi önəmi göstərir.

Hesabatın **23-25-ci bəndlərinə** gəlincə, Novruzəli Məmmədov Azərbaycan Respublikası Cinayət məcəlləsinin 274-cü bəndinə əsasən Ağır Cinayətlər üzrə Məhkəmə tərəfindən günahkar hesab olunmuş və ona 10 il həbs cəzası verilmişdir. O, milli azlığa mənsub olduğuna və ya elmi fəaliyyət apardığına görə deyil, dövlətə xəyanət etdiyinə görə ittiham olunmuşdur. Hesabatda qeyd

olunduğu kimi, N. Məmmədov mütəmadi surətdə tibbi yoxlamadan keçmiş və müalicə almışdır. 2009-cu il avqustun 17-də axşam saat 6 radələrində N.Məmmədov ona intensiv tibbi yardım göstərilməsinə baxmayaraq "baş-beyin damarlarının trombozu nəticəsində beyin qan dövranının kəskin pozulması" səbəbindən vəfat etmişdir. Tibb müəssisəsinin həkimləri və rəhbərliyi tərəfindən bu hadisə təsdiq olunmuş və sənədləşdirilmişdir. Əlavə olaraq deməliyik ki, bu məlumatların hamısı onun qohumlarına çatdırılmışdır. Onun həyat yoldaşı və oğlu tərəfindən verilən apellyasiya ərizəsinə hazırda Bakı Apellyasiya Məhkəməsində baxılır.

Hesabatın **26-29-cu bəndlərinə** gəldikdə, Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsinə uyğun olaraq E. Milli və A. Hacızadənin işinə ədalətli və açıq məhkəmə prosesində müəyyən edilmiş vaxt ərzində obyektiv və bitərəf qaydada baxılmışdır. Bu iki şəxsə münasibətdə tərəflərin bərabərliyi prinsipinə riayət olunmuşdur.

Birinci instansiya məhkəməsində (Səbail rayon məhkəməsi) çıxarılan qərar ədalətli və qanuni olmuş və verilən cəza cinayət əməlinə proporsional olmuşdur. E. Milli və A. Hacızadəyə qarşı cinayət işi adı çəkilən şəxslər tərəfindən törədilmiş konkret cinayətlə bağlı olmuş (Cinayət Məcəlləsi: Maddə 221.2.1 - bir qrup şəxs tərəfindən törədilən xuliqanlıq hərəkətləri, və Maddə 127.2.3 – xuliqanlıq hərəkətləri ilə sağlamlığa qəsdən ağır zərər vurma), və E. Milli və A Hacızadənin ictimai fəaliyyəti və ya onların ictimai bəyanatları ilə bağlı olmamışdır.

Məhkəmə vaxtı E. Milli və A. Hacızadənin hər ikisi ədalət məhkəməsini aldatmaq və ictimai fikri törədikləri cinayətdən yayındırmağa çalışdılar. Onlar öz ilkin ifadələrini dəyişərək hadisənin onların ictimai fəaliyyətləri və siyasi baxışları ilə əlaqədar olduğunu iddia etmişlər. Bundan başqa onlar iddia edirdilər ki, onlara lazımi tibbi yardım göstərilməyib və onlar öz seçdikləri vəkillə təmin edilməmişlər. Buna baxmayaraq işlə bağlı sənədlərlə tanış olduqda görmək olar ki, tutulanların hər ikisi hadisə baş verəndən dərhal sonra xüsusi və təcili tibbi yardımla təmin olunmuşlar. Bundan başqa, saxlanma zamanı onlar Vəkillər Assosiasiyasının üzvü olan vəkillə təmin olunmuşlar ki, sonradan bu vəkil onların istəyi ilə digər vəkillə əvəz olunmuşdur.

Birinci instansiya və Apellyasiya Məhkəməsində gedən məhkəmə prosesləri Azərbaycandakı xarici səfirliklərin (ABŞ, Fransa, İtaliya, Norveç, Almaniya və s.) və ATƏT və Avropa Şurası kimi beynəlxalq təşkilatların, habelə "Azad Avropa\Azadlıq", "BBC" və "Amerikanın Səsi" radio stansiyaların nümayəndələri və digər qeyri-dövlət təşkilatlarının, KİV nümayəndələrinin və müstəqil hüquq müdafiəçiləri tərəfindən müşahidə olunmuşdur. Onların kassasiya ərizəsinə hazırda Ali məhkəmədə baxılır.

### 3. Məlumat azadlıqı

*Məlumat əldə etmək imkanı*

**31-ci bənddə** qeyd olunan Məlumat azadlığı barədə qanununa gəldikdə qeyd etməliyik ki, 2005-ci ildə bu Qanunun qəbul olunmasından bəri müxtəlif dövlət orqanlarında İctimai Əlaqələr və Mətbuat Xidməti şöbələrinin yaradılmasında mühüm addımlar atılmışdır. Internet məlumat mənbələrinin yaradılması və məlumatların dövlət agentliklərinin internet səhifələrində yerləşdirilməsi sahəsində müvafiq işlər görülmüşdür. Ötən bir neçə il ərzində dövlət orqanlarının fəaliyyətinin şəffaflığını artırmaq və qanun əsasında mətbuatın məlumat əldə etmək imkanının nizamlanmasına xüsusi diqqət yetirilmişdir. Müstəqil təşkilatlar tərəfindən aparılan araşdırmalara əsasən vətəndaşların və KİV nümayəndələrinin müraciətlərinə baxılması ilə bağlı dövlət agentliklərinin fəaliyyətində xeyli irəliləyiş olmuşdur. ATƏT-in Bakı Ofisi ilə sıx əməkdaşlıq etməklə jurnalistlər və əlaqədar şöbələr və dövlət agentliklərinin mətbuat xidmətləri üçün bir sıra tədbirlərin nəzərdən keçirilməsini planlaşdıran Fəaliyyət Planının ilkin layihəsi işlənib hazırlanmışdır. 2009-2010-cu illər üçün nəzərdə tutulan bu tədbirlərin bəziləri artıq həyata keçirilmişdir. Məlumat əldə etmək imkanı sahəsində müstəqil təşkilatların apardıqları araşdırmaların nəticələri ardıcıl olaraq öyrənilir və müəyyən edilmiş problemləri aradan qaldırmaq üçün müvafiq orqanlara göstəriş verilir.

*Məlumatı yaymaq hüququ*

Hesabatın 33-cü bəndinə gəldikdə, Konstitusiyanın 32-ci maddəsinə əlavə və dəyişikliklər mətbuat azadlığını məhdudlaşdırmır, şəxsi həyatın toxunulmazlığı hüququnu möhkəmləndirmək, vətəndaşların hüquq və azadlıqlarına Konstitusiya təminatını gücləndirmək məqsədi daşıyır. Azərbaycan qanunvericiliyində ictimai əhəmiyyət kəsb edən və qanunla qadağan olunmayan məlumatların əldə edilməsi və yayılması ilə bağlı hər hansı məhdudiyyət nəzərdə tutulmur. "İnsan haqları və əsas azadlıqlarının müdafiəsi üzrə" Avropa Konvensiyasının 10-cu maddəsinin 2-ci bəndində göstərilmişdir ki, azad şəkildə informasiya almaq və yaymaq hüququ hər hansı şəxs üçün vəzifələr və məsuliyyət nəzərdə tutur və digər hallarla yanaşı, vətəndaşların nüfuzunun və hüququnun müdafiəsi, məxfi şəkildə alınmış məlumatın yayılmasının qarşısının alınması məqsədilə müəyyən formal şərtlər, məhdudiyyət və sanksiyaların tətbiq edilməsi ilə müşahidə oluna bilər. Eyni zamanda, "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 19-cu maddəsinin 3-cü bəndi informasiya əldə etmək və yaymaq hüququ ilə yanaşı xüsusi vəzifələr və məsuliyyət qoyur. Bu maddənin tələbinə görə, digər şəxsin hüququna və nüfuzuna hörmət baxımından informasiya əldə etmək və yaymaq hüququna qanunla nəzərdə tutulmuş və mütləq xarakter daşıyan məhdudiyyətlər tətbiq oluna bilər.

Göründüyü kimi, insan hüquq və azadlıqlarının müdafiəsi məqsədilə Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına edilmiş dəyişikliklər beynəlxalq hüquqi sənədlərin tələbləri ilə ziddiyyət təşkil etmir.

**4. Jurnalistika etikası və medianın müxtəlifliyi**

Mətbuat Şurasının fəaliyyətinə dair (36-37-ci bəndlər) qeyd etməliyik ki, Azərbaycan Mətbuat Şurası cəmiyyətlə KİV arasında münasibətlərin nizamlanması və mətbuatın özünü tənzimləməsi funksiyalarını yerinə yetirən ictimai təşkilat kimi 2003-cü ildə mətbuat orqanları və jurnalist təşkilatları tərəfindən təsis edilmişdir. Mətbuat Şurasının üzvləri və rəhbəri qurumun qurultayında KİV əməkdaşları tərəfindən seçilir və cəmiyyətdə tanınan, nüfuza malik şəxslərdir. Şurada hökumət orqanları ilə qarşılıqlı əlaqələr, şikayətlərə baxılması məsələləri ilə bağlı komissiyalar fəaliyyət göstərir.

Mətbuat orqanları ilə vətəndaşlar arasında yaranmış problemlərin məhkəməyə qədər tənzimlənməsi Mətbuat Şurasının əsas funksiyalarından birini təşkil edir. Şuranın müvafiq komissiyaları Azərbaycan jurnalistlərinin birinci qurultayında qəbul edilmiş jurnalistlərin peşə davranışı kodeksinə əməl edilməsinin monitorinqini həyata keçirir, vətəndaşlarla mətbuat orqanları arasında yaranmış mübahisələri tənzimləyir. Şura müntəzəm qaydada etika kodeksini və mövcud qanunları pozan mətbuat orqanlarına xəbərdarlıq edir, onların fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırır.

Fəaliyyəti dövründə Mətbuat Şurası sıravi vətəndaşlar, məmurlar, ayrı-ayrı tanınmış ictimaiyyət nümayəndələri ilə mətbuat orqanları arasında yaranmış çoxsaylı mübahisələrin qarşılıqlı razılaşma əsasında həllinə nail olmuş və mətbuat orqanları haqqında çoxsaylı məhkəmə iddialarının qarşısının alınmasında mühüm rol oynamışdır.

Mətbuat Şurası dövlət orqanı deyil, onun qərarları məcburi xarakter daşımır. Lakin Mətbuat Şurasının fəaliyyəti jurnalistlərin məsuliyyətinin və peşəkarlığının artırılmasına təkan verir.

Xarici radio stansiyalarının Azərbaycanda yayımına xitam verilməsi barədə **38-ci və 86-cı bəndlərlə** bağlı aşağıdakıları vurğulamaq lazımdır:

Yarandığı 2003-cü ildən bəri Milli Televiziya və Radio Şurası (MTRŞ) dəfələrlə xarici teleradio yayımçılarının fəaliyyətinin Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olmadığı barədə məsələ qaldırmışdır. Şura xarici yayım şirkətlərinin milli tezliklərdə yayımlanmasının mərhələlərlə dayandırılması istiqamətində ardıcıl siyasət aparmışdır. İlk mərhələdə rus kanalları "ORT", "RTR", "RUSİYA RADİOSU", Türk kanalları "Kanal D", "Samanyolu" və Fransa kanalı

“Fransa Radiosu”-nun yayımı dayandırıldı, sonra “Azadlıq radiosu/Azad Avropa”, “Amerikanın Səsi” və “BBC” radio kanallarının FM tezliklərində yayımlanması üçün müvəqqəti xüsusi bir illik lisenziya verildi. Bu kanalların lisenziya müddətinin başa çatması ilə əlaqədar olaraq MTRŞ onlara lazımi qaydada məlumat vermişdir ki, onların yerli tezliklərdə yayımı qanunvericiliyə zidd olaraq həyata keçirilir və beləliklə onların sonrakı yayımları dayandırılacaqdır.

Azərbaycan Respublikasının Televiziya və Radio Yayımı haqqında qanununa əsasən yalnız yerli teleradio yayımçıları yerli tezliklərdə yayımlana bilər. Qanunun 6-cı maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasının teleradio yayımı milli teleradio sisteminin əsasını təşkil edən dövlət, bələdiyyə, özəl və ictimai yayımçılar tərəfindən həyata keçirilir. Dövlət yayım şirkətləri Azərbaycan Respublikası Prezidentinin müvafiq əmri ilə təsis edilir. Azərbaycan qanunvericiliyinin normalarına əsasən bələdiyyə yayımı yerli özünüidarəetmə orqanı tərəfindən təsis olunur. Həmçinin, qanunvericiliyə uyğun İctimai yayım yaradıla və abonent haqqı hesabına maliyyələşdirilə bilər, amma özəl yayım Azərbaycanda daimi yaşayan vətəndaşlar və ya nizamnamə kapitalı ölkədə daimi yaşayan Azərbaycan vətəndaşlarına məxsus olan hüquqi şəxslər tərəfindən təsis edilə bilər. Bu arada qanunun 18.1.4 maddəsi təsdiq edir ki, təsisçinin nizamnamə kapitalında xarici fiziki və ya hüquqi şəxsin payı olduqda, iddiaçının sənədləri qəbul edilmədən geri qaytarılır. Qeyd edək ki, yuxarıda qeyd olunan maddələrə əsasən, xarici şirkətlərin milli tezliklərdə yayımlanması milli qanunvericiliyə ziddir. Bu həmçinin beynəlxalq standartlara və təcrübəyə ziddir. Xüsusilə də Avropa Şurasının üzv dövlətlərinin heç biri xarici şirkətlərə öz milli tezliklərində verilişlərin yayımlanmasına icazə vermir.

30 dekabr 2008-ci il tarixində MTRŞ, qanunvericiliyin tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasına məxsus milli tezliklərdə yayımlanan xarici radiostansiyaların («Azadlıq», «Amerikanın səsi» və BBC («British Broadcasting Corporation») xüsusi razılıq (lisenziya) müddətinin uzadılmaması və 01 yanvar 2009-cu il tarixdən etibarən FM tezliklərində yayımın dayandırılması və onların digər texniki vasitələrlə (internet, peyk, kabel şəbəkəsi və s.) yayımının təmin edilməsinin müvafiq qurumlara tövsiyə olunması barədə qərar qəbul edilmişdir. Hal-hazırda onların Azərbaycan Respublikasına məxsus qısa dalğalarda yayımı davam etməkdədir ("Azadlıq" radiosunun Azərbaycan Respublikasının ərazisində fəaliyyəti tam dayandırılmamış, Azərbaycan Respublikasına məxsus qısa dalğalarda yayımı hal-hazırda da davam etməkdədir*)*. Şura tərəfindən xarici radiostansiyaların internet, peyk, kabel şəbəkəsi və digər vasitələrlə yayımının təmin edilməsi üçün müvafiq tədbirlər görülməkdədir.

“Avropa plyus Bakı” radio stansiyasına gəlincə, verilmiş xüsusi lisenziya məhkəmənin qərarı ilə ləğv olunmuşdur. Bu radiostansiyanın fəaliyyəti “Televiziya və Radio Yayımı” haqqında qanun normalarını pozduğuna görə dayandırılmışdır.

## Fəsil II. Birləşmək azadlığı

### 1. Qeydiyyatdan keçmə qaydaları

Qeyri-hökumət təşkilatlarının (QHT) qeydiyyatı ilə əlaqədar (**39-42-ci bəndlər**) aşağıdakılara aydınlıq gətirilməsinə ehtiyac vardır. “Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Dövlət Reyestri haqqında” Qanunun 8.2 Maddəsinə əsasən 30 gün müddətində QHT-lərin dövlət qeydiyyatına alınması üçün daxil olmuş ərizə və ona əlavə edilməli olan sənədlərin Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğunluğu Ədliyyə Nazirliyi tərəfindən yoxlanılır və ərizəçiyə cavab verilir. Müstəsna hallarda yoxlama zamanı əlavə araşdırma aparılması zərurəti yarandıqda, yoxlama müddəti daha 30 günə qədər artırılır. Müddətin uzadılması haqqında təsisçiyə yazılı məlumat verilir.

Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı ilə əlaqədar Ədliyyə Nazirliyinə daxil olmuş sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə baxılmasına ciddi əməl olunur və son vaxtlar bu müddətin pozulması hallarına yol verilməmişdir.

Qurumun dövlət qeydiyyatından yalnız "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunun 11.3 maddəsinə əsasən imtina edilir. Bu zaman bütün səbəblər ətraflı izah olunur və təsisçilərə əsaslandırılmış cavab verilir.

Avropa İnsan Hüquqları Məhkəməsinin *Ramazanova və başqaları*, və *Nəsibova və İsmayılov Azərbaycana qarşı* və həmçinin *Əliyev və başqalarının Azərbaycana qarşı* işlərinə aid hökmlərinə gəldikdə ilk 2-si icra olunmuşdur.

**43-cü bənddəki** qeydlərə gəldikdə, ötən 12 ay ərzində dövlətlə din arasında əlaqələri, həmçinin dini qurumların qeydiyyatı ilə bağlı məsələləri tənzimləyən qanunvericilik aktlarına əhəmiyyətli dəyişikliklər edilmişdir. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanununa əsasən, Qanun qüvvəyə minənədək yaradılmış dini qurumların nizamnamələri (əsasnamələri) və digər təsis sənədləri həmin Qanunun tələblərinə uyğunlaşdırılmalı və dini qurumlar 2010-cu ilin yanvarın 1-dək yenidən dövlət qeydiyyatından keçmək üçün sənədlərini Dövlət Komitəsinə təqdim etməli idilər.

Həmçinin, fəaliyyət göstərmək istəyən bütün dini qurumların qeydiyyata (yenidən və ilk qeydiyyata) alınması zərurəti ondan irəli gəlmişdir ki, bu sahədə yaranmış pərakəndəlik aradan qaldırılsın, dini qurumların fəaliyyətində şəffaflıq yaransın. Çünki bir çox dini qurumlar dövlət qeydiyyatından keçmədən fəaliyyət göstərirdilər.

Qanuna edilmiş əlavə və dəyişikliklərlə, xüsusilə qeydiyyat proseduru ilə bağlı elektron və yazılı KİV-lər vasitəsilə cəmiyyətdə geniş maarifləndirmə işi aparılmış, yerli icra hakimiyyəti orqanları ilə birgə dini icmaların və dindarların iştirakı ilə bütün şəhər və rayonlarda seminar-treninqlər keçirilmişdir. Nəticədə Qanuna əlavə və dəyişikliklər ediləndən bu günədək Dövlət Komitəsinə 782 dini qurumun sənədi daxil olmuş və onlardan 395-i dövlət qeydiyyatına alınmışdır. Hesabatda qeyd olunduğunun əksinə olaraq, dini qurumların qeydiyyatdan keçmə prosedurunda heç bir ləngiməyə yol verilmir.

Dövlət Komitəsi tərəfindən dini icmaların dövlət qeydiyyatına alınmasından imtina edilməsi bütün hallarda qanunvericiliyin tələblərinə uyğun formada və qaydada rəsmiləşdirilir. Qeydiyyata alınmasından imtina edilmiş dini qurumlar imtinaya səbəb olmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra bir daha sənədlərini Dövlət Komitəsinə təqdim edə bilərlər. Həmin dini qurumların qeydiyyata alınması istisna olunmur.

### 2. QHT haqqında qanuna edilən dəyişikliklər

"30 iyun 2009-cu ildə Parlamentin qəbul etdiyi dəyişikliklərdə bəzi məhdudiyyətlər, məsələn xarici QHT-lərin fəaliyyəti rəsmi beynəlxalq razılığa əsaslanmırsa onlara qoyulan qadağalar"a toxunan **45-ci bəndlə** bağlı deməliyik ki, "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qeyri-hökumət təşkilatlarının sərbəst fəaliyyətini məhdudlaşdırmağa deyil, əksinə onların fəaliyyəti üçün əlverişli şəraitin yaradılması, dövlət qeydiyyatına alınması, idarə olunması, dövlət və digər orqanlarla münasibətlərinin tənzimlənməsinə yönəlmişdir.

Hesabatda göstərildiyi kimi, qanuna edilmiş əlavəyə görə, xarici dövlətlərin qeyri- hökumət təşkilatlarının filial və nümayəndəliklərinin dövlət qeydiyyatı həmin təşkilatlarla bağlanmış saziş əsasında həyata keçirilir. Bu norma həmin qurumların Azərbaycanda fəaliyyətinə daha geniş imkanların, onların dövlət orqanları, bələdiyyələr, KİV və digər təşkilatlarla əməkdaşlığı üçün əlavə hüquqi təminatların yaradılması məqsədi güdür.

**46-cı bənd** ilə bağlı deməliyik ki, qrant müqavilələrinin qeydə alınması ölkə başçısının 12.02.2004-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Qrant alınmasına (verilməsinə) dair müqavilələrin (qərarların) qeydiyyata alınması qaydalarının təsdiq edilməsi barədə Qaydalar"ın

tələbləri nəzərə alınmaqla Ədliyyə Nazirliyində sadələşmiş formada həyata keçirilir və bu sahədə qeyri-hökumət təşkilatlarına heç bir maneələr yaradılmır.

Qrant alan qeyri-hökumət təşkilatı müqavilə (qərar) bağlandığı (verildiyi) andan ən geci bir ay müddətində müqavilənin (qərarın) notarial qaydada təsdiq edilmiş surəti də əlavə olunaraq ərizə ilə müraciət edir və bir həftə ərzində Ədliyyə Nazirliyi həmin müqaviləni (qərarı) qeydə alaraq bu barədə müraciət edən qeyri-hökumət təşkilatına bildiriş verir. İndiyə qədər heç bir QHT-yə qrant müqaviləsini qeydə almaqdan imtina edilməmişdir. Hazırda qeydiyyata alınmış qrant müqavilələri barədə məlumatın Ədliyyə Nazirliyinin internet səhifəsində yerləşdirilməsi üzrə işlər aparılır.

Digər tərəfdən, 2009-cu ildə qəbul olunmuş "Cinayət yolu ilə əldə edilmiş pul vasitələrinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunda öz fəaliyyətinin tərkib hissəsi kimi vəsait alan, toplayan, verən və ya vəsait köçürən hər hansı qeyri-hökumət təşkilatları monitorinq iştirakçıları kimi müəyyən olunmuşlar. Ona görə də qeyri-hökumət təşkilatlarının öz maliyyə hesabatlarını Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etməsi ilə bağlı qanunvericilikdə norma müəyyənləşdirilmişdir. Bütün bunlar həmin sahədə şəffaflığın təmin olunmasına və qanunsuz əldə olunmuş vəsaitlərin leqallaşdırılmasının qarşısının alınmasına xidmət edir.

LGBT nümayəndələrinə qarşı (44-cü bənd) hədə-qorxu gəlinməsi barədə şikayətlərə gəldikdə belə hadisələr aşkarlanmamışdır. Bu məsələlərlə məşğul olan heç bir QHT ilə pis davranılmamışdır. LGBT hüquqlarını qoruyan QHT-lərə qarşı təqib və ya şantaj barədə şikayət və yaxud buna oxşar digər hərəkətlər barədə dövlət orqanlarına heç bir məlumat daxil olmamışdır.

**Fəsil III. Hüquq-mühafizə orqanları əməkdaşlarının davranışı**

**48, 49, 89 və 91-ci bəndlərdə** edilən qeydlərə gəlincə deməliyik ki, Polis əməkdaşları tərəfindən insanlara işgəncə verilməsi, onlar ilə qeyri-insani və ləyaqətlərini alçaldan formada davranılması, eləcə də insan və vətəndaş hüquq və azadlıqlarının pozulması barədə vətəndaşlardan və QHT-lərdən müraciət daxil olduqda, DİN-in müstəqil qurumu olan Daxili Təhqiqatlar İdarəsi tərəfindən dərhal sərbəst, bitərəf və obyektiv xidməti təhqiqat aparılır.

Təhqiqatlar Polis haqqında Qanunun və polis etikası məcəlləsinin və digər normativ hüquqi aktların pozulması hallarını aşkarladıqda polis zabitləri və cavabdeh şəxslər barədə ciddi inzibati ölçülər götürülür. Törədilən hərəkətdə cinayət elementləri müəyyən edildikdə iş müvafiq istintaq orqanlarına verilir.

50-ci bənddə qaldırılan məsələyə əlavə olaraq deməliyik ki, Daxili İşlər Nazirliyinin 1400-a yaxın əməkdaşı ATƏT, Avropa Şurası, Avropa Birliyi və həmçinin QHT-lər tərəfindən 2009-cu ildə təşkil edilmiş müxtəlif seminar, konfrans və təlim kurslarında iştirak etmişlər. ATƏT-in Bakı Ofısinin təşəbbüsü ilə beynəlxalq polis ekspertləri tərəfindən «Cəmiyyət dəstəkli polis» layihəsi çərçivəsində ayrı-ayrı regionlarda şəhər-rayon polis orqanları üçün seminar-müşavirələr keçirilmişdir.

**51-ci bəndə** gəldikdə deməliyik ki, «Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında» Konstitusiya Qanununun 12-ci maddəsinə əsasən Müvəkkil insan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına, hərbi hissələrə, cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına, müvəqqəti saxlanılma yerlərinə daxil ola, saxlanılan şəxslərlə görüşə və təkbətək söhbət edə, onların həmin yerdə saxlanılmasının qanuniliyini təsdiq edən sənədlərlə tanış ola bilər. Eyni zamanda, «İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya»nın Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq həmin protokolda nəzərdə tutulmuş milli preventiv mexanizm funksiyalarını yerinə yetirən təsisat qismində «Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) müəyyən edilmişdir. Ombudsmanın təşəbbüsü ilə

yaradılmış «Milli Preventiv Mexanizm» qrupu tərəfindən müvəqqəti saxlama yerlərinə mütəmadi başçəkmələr keçirilir. Bundan başqa hökumət və qeyri-hökumət təşkilatlarının müşahidəçilərinə sərbəst və heç bir maneə olmadan saxlama yerlərini yoxlamaq imkanları verilmişdir.

Öncədən xəbərdarlıq məsələsinə gəlincə, 2006-cı ildə yaradılan İctimai Komitənin bütün üzvləri yaradıldığı dövrdən etibarən Ədliyyə Nazirliyinin imzaladığı keçid kartları ilə təmin olunmuşlar ki, bu da onların təcrid yerlərinə məhdudiyyətsiz girişini təmin edir. Həmçinin Komitə təhlükəsizlik qaydalarına əsasən gəlməmişdən əvvəl təcrid yerlərini məlumatlandırmağa razılıq vermişdir. 2009-cu ildən bəri İctimai Komitə 22 təcrid yerinə 70-dən çox səfər etmişdir. Ümumiyyətlə, 2006-cı ildən bəri Komitə təqribən 250 səfər həyata keçirmişdir.

Bununla belə, qeyd etmək lazımdır ki, qanunvericilik istintaq təcridxanalarının (həbsdənöncə saxlama) hər hansı ictimai komitə tərəfindən yoxlanılmasını təmin etmir. Buna baxmayaraq ATƏT-in Bakı Ofisi də daxil olmaqla beynəlxalq təşkilatların təkliflərini nəzərə alaraq istintaq təcridxanalarında ictimai nəzarətin olması “Cinayətdə şübhəli bilinən və ya ittiham olunan şəxslərin hüquq və azadlıqları haqqında” qanun layihəsinə salınmışdır ki, bu layihə də Parlamentdə artıq ikinci oxunuşdan keçmişdir.

Bundan əlavə, 2009-cu ildə Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) 20, ATƏT-in Bakı Ofisi 12 və İşgəncəyə qarşı Azərbaycan Komitəsinin sədri E. Behbudov (o, həmçinin ATƏT-in Bakı Ofisinin bütün səfərlərini müşayiət etmişdir) 25 cəzaçəkmə müəssisələrinə səfər etmişlər. Bu səfərlər zamanı ekspertlər məhbusların və ittiham olunanların saxlama vəziyyətlərini yoxlamış və onlarla təkbətək söhbət aparmışlar.

**52-ci və 54-cü bəndlərdəki** edilən qeydə dair, Azərbaycan qanunvericiliyinə görə yenicə saxlanılan şəxsin xahişi ilə onun ailəsinə, dostlarına və digər əlaqəli şəxslərə ləngimədən bu haqda məlumat verilməlidir. Əgər tutulan şəxs bunu istəmirsə, həmin orqanın rəhbərliyi öz istəyi ilə adı çəkilən şəxslərə məlumat verə bilməz, tutulan şəxs qoca, fiziki cəhətdən qeyri-normal olduğu hallar istisna olmaqla. Qanunun bu normasına ciddi riayət olunmuşdur və bu günə qədər pozulma halları qeydə alınmamışdır.

Daha sonra, istintaq təcridxanasına daxil olanda şəxslər ilkin tibbi yoxlamadan keçirlər ki, bu da onların tibbi kitabçasında qeyd olunur. Onların tibbi qayğıya olan hüququ həmçinin saxlama müddətində qorunur. Əgər məhbus pis rəftardan şikayətlənirsə, onda həmin pis rəftarın nəticəsi olan hər hansı xəsarət ilkin tibbi müayinə zamanı qeyd olunur və müvafiq orqanlara hadisə barədə məlumat verilir. İstintaq təcridxanasında və islah əmək koloniyalarındakı məhkumlar da həmçinin həmin koloniyaların tibbi-sanitariya hissələrində tibbi yardım ala bilərlər. Tibbi yardıma ehtiyacı olan həmin məhkumlar xüsusi və ya adi tibb mərkəzlərinə Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinin təlimatı əsasında köçürülə bilərlər. Yalnız 2009-cu ildə Tibb Baş İdarəsinin 8818 məhbusun ətraflı tibbi yoxlanışını aparmışdır. 200-dən çox vərəm xəstəliyinin ağır formasına yoluxan məhbuslar “DOTS-PLYUS” proqramı çərçivəsində müalicə almışlar. Görülən tədbirlər nəticəsində məhbuslar arasında vərəm də daxil olmaqla ölüm hadisələrinin sayı kəskin surətdə azalmış, 2008-ci ildə 53-dən 2009-cu ildə 26-ya düşmüşdür. 1995-ci illə müqayisədə bu göstərici 32 dəfə azalmışdır.

65 müvəqqəti saxlama yerindən 20-i beynəlxalq standartlara uyğun olaraq yenidən inşa edilmiş, 39-da müasir tələblər səviyyəsində yenidənqurma və əsaslı təmir işləri aparılmışdır. Bakı şəhər Baş Polis İdarəsinin İnzibati həbs olunanların saxlama məntəqəsi və Yetkinlik yaşına çatmayanların müvəqqəti təcridetmə mərkəzi üçün beynəlxalq standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Müvəqqəti saxlama yerlərindən 54-ü həyəcan və mühafizə siqnalizasiya sistemi ilə təchiz edilmiş, həmçinin saxlanılan şəxslərin davranışına nəzarəti gücləndirmək məqsədilə onlardan 48-də videonəzarət avadanlıqları quraşdırılmışdır. Müvəqqəti saxlama yerinə gətirilmiş bütün şəxslər kameraya yerləşdirilməzdən əvvəl həkim müayinəsindən keçirilir. Səhhəti belə yerlərdə saxlanılmağa imkan verməyən məhbuslar müalicə mərkəzlərinə göndərilir.

Saxlanılan şəxslərin gətirildiyi andan hüquqi (vəkil) və zəruri hallarda tibbi (həkim) yardım ilə təmin edilməsi «Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında» Qanun layihəsində öz əksini tapmışdır.

**55-ci bəndə** gəldikdə qeyd etməliyik ki, Zabratda yerləşən Bakı istintaq təcridxanası hesabatda göstərildiyi kimi 500 nəfərlik deyil, 2500 nəfərlik tutuma malikdir. Avadanlıqlarla tam təmin olunan idman zalı dustaqların ixtiyarına verilmişdir. Tikilmiş və ya tikilməsi planlaşdırılan bütün islah yerlərinin belə idman zalları ilə təmin olunacağı nəzərdə tutulur.

**Fəsil IV. Ədliyyə Orqanlarının fəaliyyəti**

**1. Məhkəməyə qədər saxlama**

**56-cı bəndə** gəldikdə, həbs edilmiş şəxslər istintaq təcridxanasına qəbul edildikdən sonra onların sayına və müddətinə məhdudiyyət qoyulmadan, müdafiəçiləri və qanuni nümayəndələri ilə təklikdə görüşmək hüquqları təmin edilir. Qüvvədə olan qanunvericiliyə əsasən həbs edilmiş şəxslər cinayət prosesini həyata keçirən orqanın icazəsi ilə yaxın qohumları və digər şəxslərlə görüşə, yaxud yazışa bilərlər və belə razılıq olduqda bu hüquqların həyata keçirilməsinə heç bir məhdudiyyət qoyulmur. Tutulduqdan dərhal sonra ailəsinə, qohumlarına, yaşadığı və ya işlədiyi (oxuduğu) yerə telefonla tutulması barədə xəbər vermək halı istisna olmaqla, qanunvericilikdə həbs edilmiş şəxsin telefonla danışmaq hüququ nəzərdə tutulmamışdır.

**2. Ədalətli məhkəmə araşdırması hüququ**

**58-ci və 59-cu bəndlərə** gəldikdə, Azərbaycan hökuməti məhkəmə sisteminin təkmilləşdirilməsi sahəsində ardıcıl tədbirlər görür. Bu tədbirlər nəticəsində ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə hakimiyyətinin müstəqilliyinə əlavə təminatların müəyyən olunmasını nəzərdə tutan yeni qanunvericilik layihələri hazırlanmış və Avropa Şurasında ekspertizadan keçirildikdən sonra qəbul olunmuşdur.

Azərbaycanda 15 üzvü olan Məhkəmə-Hüquq Şurası fəaliyyət göstərir ki, bu üzvlərdən 9-u hakimdir və qalanları Azərbaycan Prezidentinin Administrasiyası, parlament, prokurorluq və Vəkillər Kollegiyasının nümayəndələridir. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi bu orqanın səlahiyyətinə aid edilmişdir. Bu orqanın yaradılmasında əsas məqsəd məhkəmələr və hökumət arasında yeni qurum yaratmaqla məhkəmə sisteminin müstəqilliyini gücləndirməkdən ibarət olmuşdur. Yeni apellyasiya məhkəmələri yaradılmış, beləliklə, əvvəlki yeganə apellyasiya məhkəməsinin işi yüngülləşmişdir. Bundan əlavə, "İnzibati icraat haqqında" Qanun, habelə 2009-cu ildə İnzibati-Prosessual Məcəllə qəbul edilmiş və artıq 2011-ci ildən inzibati məhkəmələrin fəaliyyətə başlaması nəzərdə tutulmuşdur. Hakimliyə namizədlərin seçilməsinin yeni qaydaları hazırlanmış və Avropa Şurasında ekspertizadan keçirildikdən sonra Məhkəmə-Hüquq Şurası tərəfindən qəbul olunmuş, müstəqil qurum - Hakimlərin Seçki Komitəsinin fəaliyyəti təmin edilmişdir. Hakimlərin seçilməsi test imtahanları və müsahibələr vasitəsilə həyata keçirilir, həmçinin onlar uzunmüddətli təlim kurslarına və təcrübələrə cəlb olunurlar.

Beləliklə qeyd etmək olar ki, Azərbaycan hökuməti tərəfindən həyata keçirilən bütün islahatların əsasında ilk növbədə məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılması və insan hüquqlarının daha etibarlı müdafiəsi dayanır.

**60-cı bəndə** dair qeyd olunmalıdır ki, *Tarvediyev, Əfəndiyev* və *Mirzəyevin Azərbaycana qarşı* işlərində Avropa İnsan Hüquqları Məhkəməsinin hökmləri Azərbaycanın rəsmi orqanları tərəfindən yerinə yetirilmişdir. *Hümbətov Azərbaycana qarşı* işinə gəldikdə isə məhkəmə hökmünün icrası davam edir. Bakı şəhəri İcra Hakimiyyəti cənab Hümbətova eyni məbləğdə yeni torpaq ərazisinin verilməsini təklif etmişdir, lakin iddiaçı hələ də cavab vermir.

## Fəsil V . Naxçıvan Muxtar Respublikasına səfərlə bağlı müşahidələr

### 1. Ümumi qeydlər

**64-cü, 70-75-ci, 94-cü və 95-ci bəndlərə** əsasən qeyd olunmalıdır ki, 28 dekabr 2009-cu ildə Culfa rayonun Bənənyar kənd sakini Y.Əliyev özünə qəsd etmək istədiyi zaman yaxınlıqda vəzifə başında olan polis işçiləri tərəfindən bunun qarşısı alınmışdır. Bu işlə əlaqədar aparılan təhqiqat aşkar etdi ki, Y.Əliyev və onun bəzi qohumları ruhi çatışmazlıqdan əziyyət çəkirlər. Y.Əliyev şəxsən Naxçıvan şəhərindəki psixiatriya xəstəxanasında qeydə alınmışdır.

Rza Nuriyevin başçılıq etdiyi bir qrup kənd sakinləri Y.Əliyevin ruhi xəstəliyindən sui-istifadə edərək onu kəndin ərazisində qeyri-qanuni hərəkətə məcbur etmə cəhdində olmuşlar. Dekabrın 28-də kənddə keçirilən dini mərasim zamanı sərxoş olan Y.Əliyev yerli özünüidarəetmə orqanı nümayəndələrindən onun tələblərinin yerini yetirilməsini israr etmiş, əks halda özünə od vurmaqla sui-qəsd edəcəyi ilə hədələmişdir. Y.Əliyevin polisin və yerli sakinlərin vaxtında müdaxiləsi nəticəsində intihar etməsinin qarşısı alınmışdır. Sonra o, xəstəxanaya yerləşdirilmiş, orada müalicə almış və daha sonra buraxılmışdır.

Y. Əliyevi sui-qəsdə təhrik edənlər daha sonra Naxçıvan Daxili İşlər Nazirliyinə çağırılsalar da könüllü gəlməkdən imtina etmişlər. Nəticədə onlar məcburi olaraq Azərbaycan Cinayət Məcəlləsinə əsasən dindirilmə üçün polis idarəsinə gətirilmişlər. Vurğulanmalıdır ki, bu şəxslər özlərinin qeyri qanuni hərəkətlərini boyunlarına almış və üzr istəmişlər. Lakin onların Bakıdakı qohumları “kütləvi həbs, qadınların və kişilərin döyülməsi və Bənənyar kəndinə kütləvi polis hücumu” barədə yalan məlumat vermişlər. Əlavə olunmalıdır ki, Bənənyar kəndində və ümumilikdə Naxçıvanın ərazisində dini mərasimin aparılmasında heç bir məhdudiyyət yoxdur və sakinlər öz Konstitusiya hüquqlarından və azadlıqlarından məhdudiyyətsiz istifadə edirdilər.